# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

# НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

# SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 19 (1501) ❖ Cümə, 5 iyun 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur





# Azərbaycanın qlobal enerji təhlükəsizliyinə töhfəsi artacaq

## Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin rəsmi açılış mərasimində iştirak edib

**İyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak edib.**

Dövlətimizin başçısı tədbirdə çıxışında "Bakı Enerji Həftəsi"nin əhəmiyyətindən bəhs edərək, qlobal enerji səhnəsində aparıcı tədbirlərdən biri kimi qiymətləndirib. Hazırda dünya enerji sektorunda baş verən halların ABŞ Prezidentinin çox müdrik və praqmatik siyasəti sayəsində ərsəyə gəldiyini qeyd edib, xüsusilə enerji məsələsini yenidən normal məcraya qaytardığına görə Prezident Donald Trampa dərin təşəkkürünü bildirib: "Hamımız bilirik ki, uzun illər neft və qaz hasilatı ilə məşğul olan ölkələr və şirkətlərə damğa vurulurdu, bəzən qarayaxma obyektinə çevrilirdilər, planetin dağıdılmasında ittiham olunurdular. Hər hansı əsas olmadan, ictimai rəylə küncə sıxışdırılırdılar. Prezident Tramp bu trendi dəyişdi və bu, həqiqətən əla hadisə oldu, çünki hamımız bilirik ki, hətta bəzi iri neft şirkətləri dırnaqarası müasir trendə uyğun olmaq xatirinə öz adlarını dəyişdirdilər. Lakin reallıq tamamilə fərqlidir. Dünya faydalı qazıntı olmadan yaşaya bilməz. Hamımız daha yaxşı iqlimi, planetin qorunmasını istəyirik. Lakin bu gün biz praqmatik olmalıyıq, enerji təhlükəsizliyi və həmçinin bərpaolunan enerjiyə sərmayə yatırmaqla yanaşı, öz gələcəyimizi planlaşdırmalıyıq. Düşünürəm, irəliyə doğru aparan yol belədir!"

Prezident İlham Əliyev Azərbaycanın 1990-cı illərin əvvəlində üzləşdiyi problemlərə diqqət çəkərək, dövlətin təbii sərvətlərdən əldə etdiyi gəlirin sosial infrastruktura, təhsilə, səhiyyəyə, enerji sahəsinin inkişafına necə yatırdığını qeyd edərək, bunun eyni problemlərdən müəyyən dərəcədə əziyyət çəkən ölkələr üçün örnək qəbul edilməli olduğunu bildirib: "Bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir. Biz xarici borcumuzu əhəmiyyətli dərəcədə azalda bildik... Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər."

Dövlətimizin başçısı Xəzər dənizini Aralıq dənizi ilə ilk dəfə birləşdirən Bakı-Tbilisi-Ceyhan, Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəmərləri, Cənub Qaz Dəhlizini təşkil edən TANAP və TAP, Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri layihələrinin sayı artmaqda olan ölkələrin enerji təhlükəsizliyində rolunun artdığını bildirib: "Beləliklə, bizim qlobal enerji təhlükəsizliyinə töhfəmiz, əlbəttə ki, artacaqdır. Düzgün enerji siyasəti bizə Azərbaycandan xaricə sərmayə yatırmağa imkan verdi. Otuz il bundan əvvəl biz investorları cəlb edirdik. İndi isə öz investisiyalarımızla xaricə çıxırıq. Bu gün Dövlət Neft Şirkəti - SOCAR Yaxın Şərq, Afrika və Mərkəzi Asiyaya investisiya yatırır və bu coğrafiya daha da genişlənəcək. Biz Xəzər dənizinin şərq sahillərində yerləşən dost və tərəfdaşlarımız üçün mühüm tranzit imkanları təqdim edirik. Mərkəzi Asiyadan hasil olunan neft Azərbaycan ərazisindən keçərək beynəlxalq bazarlara çıxarılır. Ümid edirəm ki, yaxın gələcəkdə təbii qazla bağlı da eyni sözləri deyə biləcəyik."

Prezident İlham Əliyev bu gün eyni əməkdaşlıq ruhunun və investisiyaya açıq yanaşmanın bərpaolunan enerji sektorunda fəaliyyət göstərən şirkətlərə də tətbiq olunduğunu vurğulayıb: "Artıq bir sıra layihələrimiz istismar mərhələsindədir. Gələn ilin sonunadək Günəş və külək enerjisi üzrə ümumi gücümüz 2 giqavata çatacaq. 2032-ci ilin sonunadək isə bu göstərici 8 giqavat təşkil edəcək. Əgər fəal şəkildə inkişaf etdirdiyimiz hidroenerji potensialını da nəzərə alsaq, xüsusilə Qarabağda və Şərqi Zəngəzurda artıq 300 meqavatdan çox güc istifadəyə verilmişdir. Bu da ölkəmiz üçün əlavə enerji potensialı yaradır. Həmin potensial neft və qaz ixracımızı tamamlayan bir mənbəyə çevriləcəkdir."

Bu gün Azərbaycanın tərəfdaşları ilə enerji kabeli layihələri üzrə də sıx əməkdaşlıq etdiyini qeyd edən dövlətimizin başçısı texniki-iqtisadi əsaslandırma mərhələsinin artıq yekunlaşmaq üzrə olduğu "Qara dəniz Enerji Kabeli" layihəsinin Azərbaycanı Gürcüstan, Qara dəniz vasitəsilə Rumıniya, Macarıstan və digər ölkələrlə birləşdirəcəyini, Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan marşrutu üzrə quruda çəkiləcək elektrik kabeli layihəsinin isə hazırda icra mərhələsində olduğunu bildirib.

Prezident İlham Əliyev Mərkəzi Asiyadakı tərəfdaşlarımızla birlikdə Xəzərin şərq sahillərindən Azərbaycana qədər uzanacaq yaşıl enerji kabeli layihəsi və qitələri bir-biri ilə əlaqələndirən yeni nəqliyyat dəhlizləri barədə də ətraflı məlumat verib.

Nitqinin sonunda dövlətimizin başçısı ənənəvi olaraq "Bakı Enerji Həftəsi"nin bu dəfə də uğurlu nəticələr verəcəyinə, aparılan müzakirələr, təmaslar, yeni ideyalar və nəticəyönümlü planların hamı üçün faydalı olacağına əminliyini ifadə edib.

Sonra ABŞ Prezidenti Donald Trampın, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Böyük Britaniyanın Baş naziri Kir Starmerin "Bakı Enerji Həftəsi"nə məktubları oxunub və çıxışlar edilib.

Daha sonra sənədlərin imzalanması mərasimi keçirilib.

Dövlətimizin başçısı "Bakı Enerji Həftəsi"nin sərgiləri ilə də tanış olub. Prezident İlham Əliyev sərginin xatirə kitabını imzalayıb.

İyunun 3-dək davam edən "Bakı Enerji Həftəsi" Xəzər regionunun ən nüfuzlu enerji tədbirlərindən olaraq, qlobal enerji liderlərini, dünyanın aparıcı enerji şirkətlərini, dövlət qurumlarını, investorları və sənaye mütəxəssislərini bir araya gətirib.

## 2026-cı il üçün Azərbaycan Respublikasının elm və mədəniyyət sahələrində Dövlət Mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Elm, texnologiya, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifinə əsasən **qərara alıram:**

2026-cı il üçün Azərbaycan Respublikasının elm və mədəniyyət sahələrində Dövlət Mükafatları aşağıdakı şəxslərə verilsin:

**Elm sahəsi üzrə**

*Asəf Hacı oğlu Hacıyev* - "Çoxölçülü reqressiya analizi və süni intellekt" kitabına görə

*Tarix Meyrut oğlu Dostiyev* - Orta əsr Gəncə və Şəmkir şəhər yerlərində aparılan arxeoloji qazıntılar əsasında əldə etdiyi fundamental elmi nəticələrə görə

**Mədəniyyət sahəsi üzrə**

*Eldar Hidayət oğlu Mikayılzadə* - "Azərbaycan xalçası - ilmələrin rəqsi", "Xəmsə" silsiləri və "Səmavi dinlər" triptixinə görə.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 26 may 2026-cı il*

## A.H.Hacıyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə və elmin inkişafında xidmətlərinə görə Asəf Hacı oğlu Hacıyev "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 may 2026-cı il*

# Birinci Türkoloji Qurultayın 100 illiyi ilə bağlı AMEA-da görülmüş işlər və qarşıda duran vəzifələr



**Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

İclası giriş sözü ilə açan **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** gündəlikdə yer alan elmi və elmi-təşkilati məsələlər barədə ətraflı məlumat verib.

Tədbirdə müzakirəyə çıxarılan ilk mövzu Birinci Türkoloji Qurultayın 100 illiyi ilə bağlı AMEA-da görülmüş işlər və qarşıda duran vəzifələr haqqında olub.

Akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından irəli gələrək bu ilin 27-28 fevral tarixlərində AMEA Rəyasət Heyətində keçirilən "Birinci Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans barədə söz açıb, bu tədbirin türk dünyası üçün müstəsna əhəmiyyətini vurğulayıb.

Konfransda Türk dünyasının elmi qurum və universitetlərindən 85 nümayəndənin iştirak etdiyini və tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edən AMEA rəhbəri, iyunun sonunda Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilən Türk dünyası həftəsinin keçiriləcəyini xatırladıb. Həftə ərzində keçiriləcək tədbirlərdə AMEA-nın yüksək səviyyədə iştirakının təmin edilməsi ilə bağlı elmi bölmələrin, institut və təşkilatların rəhbərlərinə tapşırıqlarını verən akademik İsa Həbibbəyli tədbir ərəfəsində Rəyasət Heyətinin binasında və Mərkəzi Elmi Kitabxanada geniş sərgilərin və bölmə iclaslarının təşkil ediləcəyini diqqətə çatdırıb, təşkilati işlərin həyata keçirilməsi məqsədilə müvafiq göstərişlər verib.

AMEA prezidenti Birinci Türkoloji Qurultayın 100 illiyi ilə əlaqədar Akademiyada keçirilən elmi konfranslar, "Elm" nəşriyyatı tərəfindən çap olunan kitablar, təşkil edilən sərgilər barədə ətraflı məlumat verib, həmçinin türkologiya elmi sahəsində Akademiyada aparılan fundamental tədqiqatların gedişatı və gələcək perspektiv planları da iclas iştirakçılarının diqqətinə çatdırıb. Yubiley tədbirlərinin il boyu davam etdiriləcəyini vurğulayıb.

Sonra **Rəyasət Heyətinin Elm və təhsil şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Sərxan Xavəri** Birinci Türkoloji Qurultayla bağlı AMEA-da görülmüş işlər və qarşıda duran vəzifələrə dair geniş məruzə ilə çıxış edib.

Məruzəçi qeyd edib ki, bu böyük missiyanın icrası məqsədilə Akademiyada xüsusi qərarlar qəbul edilərək geniş tədbirlər planı işlənib hazırlanıb və bu proses sadəcə bir təqvim hadisəsi kimi deyil, genişmiqyaslı akademik fəaliyyət proqramı kimi reallaşdırılıb. O, Birinci Türkoloji Qurultayın 100 illik yubileyi ilə bağlı keçirilən tədbirlərin Türk dünyasının ortaq elmi-mədəni dəyərlərinin dərindən öyrənilməsi baxımından mühüm tarixi hadisə kimi dəyərləndirildiyini deyib. Türk dünyasının zəngin mədəni irsini əks etdirən təqdimatların, Birinci Türkoloji Qurultaya dair materialların və nadir arxiv sənədlərinin müasir çağırışlara uyğun olaraq yüksək səviyyədə hazırlandığını diqqətə çatdıran Sərxan Xavəri qarşıdakı dövrdə türkologiya sahəsində əldə olunan elmi nəticələrin fundamental nəşrlərə çevrilməsi və gənc tədqiqatçıların bu elmi proseslərə geniş cəlb edilməsinin mühüm strateji vəzifələr kimi müəyyənləşdirildiyini bildirib.

İclasda mövzu ətrafında **akademik Rasim Əliquliyev, akademik İradə Hüseynova, akademik Gövhər Baxşəliyeva, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, professor Nadir Məmmədov, filologiya elmləri doktoru Hikmət Quliyev, texnika elmləri doktoru Hüseyn Hüseynov, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov** və başqaları çıxış edərək, həyata keçirilən işlərin türkologiya elminin gələcək inkişafına mühüm töhfələr verəcəyinə əminliklərini bildiriblər.

Müzakirələrin sonunda Rəyasət Heyəti tərəfindən müvafiq qərar qəbul edilib.

Sonra iclasda AMEA-nın elmi müəssisə və təşkilatlarının, regional elmi bölmə və mərkəzlərinin 2026-cı ilin birinci yarısı üzrə elmi və elmi-təşkilati fəaliyyətinə dair yarımillik hesabatları ilə bağlı məsələ müzakirə olunub. Akademik İsa Həbibbəyli elmi müəssisə və təşkilatların cari ilin ilk altı ayı ərzində əldə etdiyi mühüm elmi nailiyyətlərin, icra olunan layihələrin, xüsusilə rəqəmsal fəaliyyət və beynəlxalq əlaqələr sahəsində həyata keçirilən işlərin hesabatda dolğun şəkildə əks olunmasının zəruriliyini vurğulayıb. Akademik hesabat dövründə qazanılan uğurların elmi ictimaiyyətə çatdırılması və qarşıdakı yarımildə elmi fəaliyyətin daha da səmərəli təşkili istiqamətində müəssisə rəhbərlərinə tövsiyələrini verib.

Gündəlikdə yer alan növbəti məsələ 2026-cı il üçün AMEA-da doktoranturaya sənəd qəbulunun mövcud vəziyyəti barədə olub.

Akademik İsa Həbibbəyli gənc kadrların elmə cəlb edilməsi və qəbul prosesinin cari gedişatı barədə fikirlərini səsləndirib, AMEA-nın regionlardakı elmi bölmələrində doktorantura yerlərinin səmərəli bölüşdürülməsinin regionlarda elmi potensialın gücləndirilməsi məsələlərinə xüsusi diqqət kimi qiymətləndirib.

Sonra mövzu ilə bağlı çıxış edən dosent Sərxan Xavəri doktoranturaya qəbul planı barədə statistik məlumatları təqdim edib. Məruzəçi, həmçinin xarici vətəndaşların doktoranturada təhsili ilə bağlı müraciətləri, ümumi plan yerlərinin ötən illərlə müqayisəli statistikası və sənəd qəbulunun gedişatı barədə məlumatları diqqətə çatdırıb.

İclasda akademik İsa Həbibbəyli VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında AMEA-nın iştirakının yekunlarına dair məsələ ətrafında çıxışında Akademiyanın festival çərçivəsindəki təmsilçiliyinin yükdək dəyərləndirib, nümayiş olunan elmi nəşrlər və qurulan mədəni-elmi əlaqələrin uğurlu nəticələrinin əhəmiyyətini diqqətə çatdırıb. Kitab festivalının həm gənc tədqiqatçılar, həm də təcrübəli alimlər üçün böyük bir məktəb olduğunu vurğulayan akademik İsa Həbibbəyli, AMEA alimlərini gələcəkdə də bu kimi beynəlxalq festivallarda fəal iştirak etməyə və elmi nailiyyətlərini beynəlxalq ictimaiyyətə çatdırmağa səsləyib.

Festivalda Akademiyanın iştirakının yekunları barədə çıxış edən **Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmləri doktoru Mehman Həsənli** festival çərçivəsində 18 panel iclasın keçirildiyini, AMEA-nın son illərdə çap olunmuş elmi nəşrlərinin böyük maraqla qarşılandığını, xüsusilə Akademiyanın "Elm" nəşriyyatının festival çərçivəsində fəal mövqe nümayiş etdirdiyini və bu uğurlu təmsilçiliyin akademiyanın beynəlxalq nüfuzuna müsbət təsir göstərdiyini diqqətə çatdırıb.

İclasda həmçinin gündəlikdə duran elmi-təşkilati məsələlərə dair AMEA Rəyasət Heyəti tərəfindən müvafiq qərarlar qəbul edilib.

## AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin Qurban bayramı münasibətilə Akademiya əməkdaşlarına təbriki

**Hörmətli həmkarlar!**

Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti, firavanlıq və elmi fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

İslam dünyasının ən əziz və mənəvi dəyərlərlə zəngin bayramlarından olan Qurban bayramı insanları mərhəmətə, xeyirxahlığa, birlik və həmrəyliyə çağıran müqəddəs bir gündür. Bu əlamətdar gün yüksək mənəvi keyfiyyətlərin, humanizm və ehtiyacı olana əl tutma ənənələrinin təcəssümü kimi cəmiyyətimizdə xüsusi ehtiramla qeyd olunur.

Xalqımız əsrlər boyu milli-mənəvi və dini dəyərlərinə sadiq qalaraq bütün dövrlərdə öz adət-ənənələrini qoruyub yaşatmışdır. Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələrinin möhkəmlənməsi, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu gün ölkəmizdə dini bayramların yüksək səviyyədə qeyd olunması xalqımızın mənəvi birliyinin və milli həmrəyliyinin parlaq ifadəsidir.

Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş milli-mənəvi dəyərlərin qorunması siyasəti bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmizdə tolerantlıq və qarşılıqlı hörmət mühiti daha da möhkəmlənir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən bu istiqamətdə misilsiz layihələr həyata keçirilir.

Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi də xalqımızın zəngin mənəvi irsinin, milli dəyərlərinin və mədəniyyətinin tədqiqi, təbliği və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm fəaliyyət həyata keçirir.

Əziz həmkarlar,

Müqəddəs Qurban bayramı münasibətilə bir daha hər birinizi səmimi-qəlbdən təbrik edir, evlərinizə bərəkət, süfrələrinizə ruzi, ailələrinizə xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**İsa HƏBİBBƏYLİ,**
**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik**

*27 may 2026-cı il*

## AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin 28 May - Müstəqillik Günü münasibətilə Akademiya əməkdaşlarına təbriki

**Hörmətli Akademiya əməkdaşları!**

Sizi xalqımızın dövlətçilik tarixinin ən parlaq və qürurverici səhifələrindən biri olan 28 May - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, firavanlıq, yeni uğurlar və nailiyyətlər arzulayıram.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması xalqımızın milli azadlıq və müstəqillik ideallarının təntənəsi, dövlətçilik ənənələrimizin bərpası və inkişafı baxımından mühüm tarixi hadisə olmuşdur. Şərqdə ilk parlamentli demokratik respublika kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə xalqımızın milli kimliyinin formalaşdırılması, demokratik dəyərlərin təşəkkülü və müasir dövlətçilik prinsiplərinin yaradılması istiqamətində mühüm addımlar atmışdır. Heç şübhəsiz, Cümhuriyyətin həyata keçirdiyi islahatlar sovet hakimiyyətinin hökm sürdüyü 70 il ərzində xalqımızın azadlıq, müstəqillik və milli suverenlik arzularının yaşamasında özünün misilsiz təsirini göstərmişdir.

Müstəqilliyimizin bərpasından sonra ölkəmizin suverenliyinin möhkəmləndirilməsi və dövlətçiliyimizin inkişaf etdirilməsi istiqamətində Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilən zəngin dövlət quruculuğu siyasəti Azərbaycanın davamlı inkişafının möhkəm təməlini yaratmışdır. Bu siyasi kurs Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, Vətən müharibəsi və lokal antiterror tədbirləri zamanı qazanılmış tarixi qələbələrlə Azərbaycanın dövlət suverenliyi tam bərpa olunmuş, bütün ölkə ərazisində dövlət bayrağımız dalğalandırılmışdır. Bu möhtəşəm zəfər çoxəsrlik zəngin dövlətçiliyə malik olan Azərbaycanın tarixinə Prezident İlham Əliyevin adı ilə daxil olmuş misilsiz hadisədir.

Heç şübhəsiz, bu gün Azərbaycan nəinki regionda, bütün dünyada söz sahibi ölkələrdən birinə çevrilmişdir və BMT səviyyəli konfranslara, forumlara yüksək səviyyədə ev sahibliyi etməsi bunun əyani göstəricisidir.

Bu gün Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi də dövlətimizin inkişafı yolunda durmadan çalışır, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması naminə öz səylərini əsirgəmir.

Hörmətli həmkarlar, bu əlamətdar gün münasibətilə bir daha hər birinizə möhkəm cansağlığı, yeni elmi nailiyyətlər və uğurlar arzulayıram.

**İsa HƏBİBBƏYLİ**
**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik**

*28 may 2026-cı il*

# Akademiyada rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavinləri təyin olundular

## AMEA-da Rəqəmsal Akademiya, süni intellekt və elektron xidmətlər Mərkəzi yaradılıb, ingilis dilində "Sosial tədqiqatlar və süni intellekt" jurnalı təsis edilib

**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.**











Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, eləcə də AMEA-nın Rəyasət Heyəti aparatının şöbə müdirləri, elmi müəssisə və təşkilatların direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

Əvvəlcə bir qrup alim və mütəxəssisə "Əmək veteranı" vəsiqələri təqdim olunub.

İclasda müzakirə edilən ilk məsələ Azərbaycan Respublikası Prezidentinin "Lətif Kərimovun 120 illiyinin qeyd edilməsi haqqında" 30 aprel 2026-cı il tarixli Sərəncamının icrasından irəli gələn vəzifələr haqqında olub. Məsələ ilə bağlı çıxış edən **akademik İsa Həbibbəyli** bildirib ki, 2026-cı ilin noyabr ayında Azərbaycan təsviri sənətinin böyük ustası, görkəmli xalçaşünas, pedaqoq və sənətşünas alim, SSRİ Dövlət mükafatı laureatı, Xalq rəssamı Lətif Kərimovun 120 illiyi tamam olur. Akademik İsa Həbibbəyli qeyd edib ki, dünyaşöhrətli Xalq rəssamı Lətif Kərimov Azərbaycanda bu sahədə məktəb yaradıb və xalqımızın tarixi xalça ənənələrini bütün dünyada tanıdıb.

Sərəncamın 1-ci bəndində AR Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasına Lətif Kərimovun 120 illiyinə dair Tədbirlər planının hazırlanıb həyata keçirilməsinin tapşırıldığını deyən akademik İsa Həbibbəyli bu çərçivədə konfransların, sərgilərin təşkilinin nəzərdə tutulduğunu vurğulayıb.

Rəyasət Heyəti tərəfindən Lətif Kərimovun 120 illiyi ilə bağlı AMEA-nın Tədbirlər planının hazırlanması məqsədilə AMEA-nın elmi bölmə, müəssisə və təşkilatlarına təkliflərin təqdim edilməsi tapşırılıb.

Daha sonra akademik İsa Həbibbəyli BMT-nin XIII Ümumdünya Şəhərsalma Forumunda (WUF13) Azərbaycan Milli Elmlər Akademiyasının iştirakı haqqında məlumat verib. Qeyd edib ki, BMT səviyyəsində belə bir mötəbər tədbirin ölkəmizdə keçirilməsi Prezident İlham Əliyevin dünyada artan nüfuzunun və dövlətimizə beynəlxalq miqyasda olan etimadın bariz göstəricisidir. Akademik İsa Həbibbəyli bildirib ki, Azərbaycan artıq ikinci dəfədir BMT-nin nüfuzlu tədbirlərinə ev sahibliyi edir. 2024-cü ildə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransının (COP29) da ölkəmizdə keçirildiyini və dünyanın gələcəyi üçün bir sıra mühüm qərarların qəbul edildiyini deyən akademik İsa Həbibbəyli bu il Bakıda keçirilən WUF13 Forumuna da beynəlxalq miqyasda böyük marağın müşahidə edildiyini vurğulayıb. Diqqətə çatdırıb ki, Azərbaycan İçərişəhərlə klassik, "Sea Breeze"lə modern, Qarabağdakı "Ağıllı şəhər" və "Ağıllı kənd"lər layihələri ilə dünyaya müasir şəhərsalmanın yeni modelini təqdim edir.

AMEA-nın kollektivinin də WUF13 Forumunda yaxından iştirak etdiyini deyən akademik İsa Həbibbəyli AMEA-nın Rəyasət Heyətinin üzvlərinin, Rəyasət Heyəti aparatının, Biologiya və Tibb Elmləri Bölməsinin, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun əməkdaşlarının Forum çərçivəsində keçirilən tədbirlərdə aktivlik göstərdiklərini söyləyib. Qeyd edib ki, Forum həm ölkəmiz, həm də Akademiya üçün faydalı olub, alimlərimiz gələcək əməkdaşlıq üçün yeni əlaqələr qurublar.

Akademik İsa Həbibbəyli Forumun nəticələrinin ciddi şəkildə öyrənilməsi və gələcək tədqiqatlarda istifadə edilməsi üçün müvafiq tapşırıqlarını verib.

Rəyasət Heyətinin iclasında Azərbaycan Milli Elmlər Akademiyasında ingilis dilində "Sosial tədqiqatlar və süni intellekt" jurnalının təsis edilməsi haqqında məsələyə də baxılıb.

Akademik İsa Həbibbəyli bildirib ki, AMEA-da süni intellekt və rəqəmsal inkişafla bağlı ardıcıl işlər həyata keçirilir və təsis olunacaq yeni nəşr ölkəmizdə süni intellektə həsr edilmiş ilk jurnal olacaq. Bu məsələnin olduqca məsuliyyət tələb etdiyini bildirən akademik İsa Həbibbəyli jurnalın ildə iki sayının işıq üzü görəcəyini söyləyib.

Eyni zamanda jurnalın redaksiya heyətinin tərkibinin formalaşdırılması, ISSN, e-ISSN və DOI identifikatorlarının alınması üçün zəruri tədbirlərin həyata keçirilməsi, yüksək poliqrafik və elektron formatda nəşrinin planlaşdırıldığını vurğulayıb.

Qeyd olunanları nəzərə alaraq, Rəyasət Heyətinin qərarı ilə Azərbaycan Milli Elmlər Akademiyasında ingilis dilində "Sosial tədqiqatlar və süni intellekt" jurnalı təsis edilib.

İclasda müzakirəyə çıxarılan növbəti məsələ AMEA-nın Rəqəmsal Akademiya, süni intellekt və elektron xidmətlər şöbəsinin bazasında Rəqəmsal Akademiya, süni intellekt və elektron xidmətlər Mərkəzinin yaradılması haqqında olub. Akademik İsa Həbibbəyli vurğulayıb ki, 2023-cü ilin yanvar ayında AMEA-nın Rəyasət Heyətinin aparatında dövlətimizin və müasir dünyanın çağırışlarına uyğun olaraq, "Elektron Akademiya" şöbəsi yaradılıb. Daha sonra buna müvafiq olaraq AMEA-nın elmi müəssisə və təşkilatlarında "Elektron xidmətlər" şöbələri yaradılıb, rəqəmsallaşma, süni intellekt texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişlənməsi istiqamətində bir çox uğurlar əldə edilib.

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" və dövlət başçısının 2025-ci il 19 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası"ndan irəli gələrək 2025-ci ilin sentyabr ayında "Elektron Akademiya" şöbəsinin adının "Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər" olaraq dəyişdirildiyini deyib. Akademik İsa Həbibbəyli, həmçinin AMEA-nın elmi müəssisə və təşkilatlarında, regionlarda yerləşən Elmi Bölmələrində və Mərkəzlərindəki "Elektron xidmətlər" şöbələrinin əsasında Rəqəmsal elm sahəsi və süni intellekt şöbələrinin yaradıldığını söyləyib.

AMEA rəhbəri qeyd edib ki, ölkəmizdə rəqəmsal transformasiya sahəsində həyata keçirilən dövlət səviyyəli tədbirlər, eləcə də süni intellekt, rəqəmsallaşma, elektron idarəetmə və kibertəhlükəsizlik kimi strateji istiqamətlər üzrə müəyyən edilmiş prioritetlər Akademiyanın elmi fəaliyyətində konseptual baxımdan daha müasir yanaşmaların formalaşdırılmasını zəruri etmişdir. Bu məqsədlə Akademiyada rəqəmsallaşma, süni intellekt və elektron xidmətlər sahəsində həyata keçirilən fəaliyyətlərin vahid strateji əsaslar üzərində əlaqələndirilməsi, elmi müəssisə və təşkilatlarda yaradılmış müvafiq struktur vahidlərinin fəaliyyətinin sistemli şəkildə koordinasiya olunması, rəqəmsal infrastrukturun inkişaf etdirilməsi və bu istiqamətdə görülən işlərin səmərəliliyinin artırılmasının təmin edilməsi məqsədilə AMEA-nın Rəyasət Heyəti aparatının Rəqəmsal Akademiya, süni intellekt və elektron xidmətlər şöbəsinin bazasında Rəqəmsal Akademiya, süni intellekt və elektron xidmətlər Mərkəzinin yaradılması zərurətinin yarandığını diqqətə çatdırıb.

Qeyd olunanları nəzərə alaraq, AMEA-nın Rəyasət Heyətinin qərarı ilə sözügedən şöbənin bazasında Rəqəmsal Akademiya, süni intellekt və elektron xidmətlər Mərkəzi yaradılıb.

Sonra **AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyev** Bolqarıstan Elmlər Akademiyasının (BEA) təşkilatçılığı ilə Bolqarıstanın Sofiya şəhərində keçirilmiş Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QİƏT) üzv dövlətlərin Elmlər Akademiyaları prezidentlərinin üçüncü iclasında iştirakı haqqında məlumat verib.

Akademik İbrahim Quliyev bildirib ki, 14-15 may 2026-cı il tarixlərində keçirilən iclasın əsas müzakirə mövzusu "Süni intellekt QİƏT regionunda elmi əməkdaşlığın katalizatoru kimi" olub və tədbirdə Azərbaycanla yanaşı, Türkiyə, Albaniya, Moldova, Rumıniya, Serbiya, Ermənistan və Ukrayna Elmlər Akademiyalarının rəhbərləri iştirak edib. Akademik İbrahim Quliyev tədbirdə "Azərbaycanda Yer elmləri sahəsində elmi tədqiqatlarda süni intellektdən istifadə təcrübəsi və perspektivləri" mövzusunda təqdimatla çıxış etdiyini diqqətə çatdırıb.

Həmçinin akademik İbrahim Quliyev bir sıra ikitərəfli görüşlərə qatıldığını, QİƏT-ə üzv dövlətlərin elmi qurumlarının dünya elminə qarşılıqlı inteqrasiyası prosesinin gücləndirilməsi yollarının müzakirə olunduğunu söyləyib.

Səfər çərçivəsində, o cümlədən Azərbaycan Respublikasının Bolqarıstandakı səfirliyi tərəfindən təşkil edilmiş "Enerji təhlükəsizliyi və Azərbaycanın enerji resursları" mövzusunda dəyirmi masada müzakirələrdə iştirak etdiyini də bildirib.

Məlumat dinlənildikdən sonra Rəyasət Heyəti tərəfindən müvafiq qərar qəbul olunub.

İclasda, o cümlədən öz ərizələri əsasında AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun doktorantı Ayxan Qarayevin doktorantura təhsilinə xitam verilməsi, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun fəlsəfə doktoru hazırlığı üzrə doktorantı Dünya Əhmədovanın və AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun fəlsəfə doktoru hazırlığı üzrə doktorantı Nargilə Hacıyevanın əyani təhsildən qiyabi təhsilə keçirilmələri haqqında qərarlar qəbul olunub.

Daha sonra kadr məsələlərinə baxılıb. Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, dövlət başçısının 27 fevral 2026-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə ölkəmizdə Rəqəmsal İnkişaf Şurası yaradılıb. Həmçinin dövlət başçısının 27 fevral 2026-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" təsdiq edilib və Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi və icrasına nəzarət Rəqəmsal İnkişaf Şurasına həvalə olunub.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Fəaliyyət Planının 6.1.5.2.1. bəndində hər bir dövlət orqanına rəhbərin müavini səviyyəsində rəqəmsallaşma, innovasiya, süni intellekt və kibertəhlükəsizlik üzrə funksiyanın icrasına məsul şəxsin müəyyənləşdirilməsi tapşırılıb. AMEA rəhbəri sözügedən tapşırığın icrası ilə əlaqədar olaraq, Akademiyada müvafiq komissiyanın yaradıldığını və müavinliyə namizəd şəxslərin qiymətləndirilməsi üçün müsahibənin təşkil edildiyini söyləyib.

İclasda filologiya elmləri doktoru Mehman Həsənlinin AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər, rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini vəzifəsinə, filologiya üzrə fəlsəfə doktoru Afaq Ramazanovanın AMEA-nın Folklor İnstitutunun elmi işlər, rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini vəzifəsinə, tarix elmləri doktoru İlqar Niftəliyevin AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun elmi işlər, rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini vəzifəsinə, texnika üzrə fəlsəfə doktoru Rauf Muradovun AMEA-nın Respublika Seysmoloji Xidmət Mərkəzinin elmi işlər, rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini vəzifəsinə, filologiya elmləri doktoru Məsud Mahmudovun AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini vəzifəsinə, filologiya üzrə fəlsəfə doktoru Xatirə Yusifovanın AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini vəzifələrinə təsdiq edilmələri haqqında qərarlar qəbul edilib.

Bundan əlavə, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ramil Quliyev AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini vəzifəsinə, tarix üzrə fəlsəfə doktoru Pərviz Qasımov AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini vəzifəsinə, fəlsəfə üzrə fəlsəfə doktoru Məhəmməd Cəbrayılov AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini vəzifəsinə, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayev AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini vəzifəsinə, filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov AMEA-nın Naxçıvan Bölməsinin rəqəmsal inkişaf və süni intellekt üzrə sədr müavini vəzifəsinə, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov AMEA-nın Gəncə Bölməsinin rəqəmsal inkişaf və süni intellekt üzrə sədr müavini vəzifəsinə təsdiq ediliblər.

Həmçinin tarix üzrə fəlsəfə doktoru Nigar Camalova AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Rəqəmsal tarix-etnologiya və süni intellekt şöbəsinin müdiri vəzifəsinə, filologiya elmləri doktoru Vaqif Yusifov isə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin müdiri vəzifəsinə təsdiq olunublar.

Rəyasət Heyətinin iclasında, o cümlədən akademik Möhsün Nağısoylunun 80, akademik Məmmədtağı Cəfərovun 90, akademik Ədilə Namazovanın 100, akademik Midhəd Abasovun 100, AMEA-nın müxbir üzvü Fəridə Məmmədovanın və AMEA-nın müxbir üzvü Vəli Əliyevin 90 illik yubileyləri haqqında qərarlar qəbul edilib.

İclasda qeyd olunan məsələlər ətrafında **akademik Rasim Əliquliyev, akademik İradə Hüseynova, akademik Gövhər Baxşəliyeva, akademik Arif Həşimov, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli, professor Kərim Şükürov, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov** və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

# AMEA ilə Özbəkistanın Asiya Texnologiya Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Özbəkistan Respublikasının Qaşqadərya vilayətinin Qarşi şəhərində fəaliyyət göstərən Asiya Texnologiya Universitetinin rektoru iqtisad üzrə fəlsəfə doktoru, dosent Loçin Raxmanov ilə görüşüb.**



Görüşdə çıxış edən akademik İsa Həbibbəyli ortaq tarixi soykökə söykənən Azərbaycan-Özbəkistan münasibətlərinin son illərdə iki qardaş ölkənin dövlət başçılarının sıx əlaqələri nəticəsində strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini, bunun elm və təhsil istiqamətində də geniş əməkdaşlığa meydan açdığını söyləyib.

AMEA-nın Özbəkistanın akademik qurumları və ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq etdiyini deyən akademik İsa Həbibbəyli bu əlaqələrin birgə elmi tədqiqatların genişlənməsi, ortaq layihələrin hazırlanması və konfransların təşkili baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Akademik İsa Həbibbəyli bildirib ki, son illərdə yaranmış akademik münasibətlər nəticəsində AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda dahi özbək şairi Əlişir Nəvaiyə həsr olunmuş Əlişir Nəvai Ədəbiyyatşünaslıq Mərkəzi fəaliyyət göstərir. Eyni zamanda Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində dahi şairimiz Məhəmməd Füzulinin adını daşıyan Mərkəzin yaradıldığını deyib.

Daha sonra çıxış edən Loçin Raxmanov rəhbərlik etdiyi Asiya Texnologiya Universiteti barədə ətraflı məlumat verib. Universitetdə innovativ təhsil modelinin tətbiq olunduğunu, beynəlxalq əməkdaşlığa xüsusi önəm verildiyini bildirib.

Rektor Loçin Raxmanov AMEA ilə elmi-tədqiqat, akademik mübadilə, birgə konfrans və layihələrin həyata keçirilməsi istiqamətində əməkdaşlıqda maraqlı olduqlarını ifadə edib.

Çıxışlardan sonra AMEA ilə Özbəkistanın Asiya Texnologiya Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.

Daha sonra qarşılıqlı kitab hədiyyələri təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

Qeyd edək ki, görüşdə Asiya Texnologiya Universitetinin icraçı direktoru Elyor İbrahimov, Elm və innovasiyalar departamentinin müdiri Uktam Abdullayev, həmçinin AMEA-nın Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri dosent Esmira Əlirzayeva, İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri dosent Ağahüseyn Şükürov və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı filologiya üzrə fəlsəfə doktoru Aytən Qurbanova iştirak ediblər.

# İğdır Universitetinin rektoruna AMEA Rəyasət Heyətinin Fəxri professoru diplomu təqdim olunub

**Türkiyənin İğdır Universitetinin rektoru professor Ekrem Gürel AMEA Rəyasət Heyətinin Fəxri professoru seçilib. Bu münasibətlə AMEA-nın Rəyasət Heyətində türkiyəli qonaqlarla görüş keçirilib.**



AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxış edərək Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə olduğu kimi, elm və təhsil istiqamətində də münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini bildirib. Vurğulayıb ki, təməlləri Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" anlayışına söykənən və bu gün dövlət başçılarımız səviyyəsində formalaşan strateji müttəfiqlik münasibətlərimiz akademik qurumlar arasında da əməkdaşlığın genişlənməsinə mühüm zəmin yaradıb.

AMEA prezidenti vurğulayıb ki, son illərdə iki ölkənin alimləri birgə layihələr, beynəlxalq konfranslar, elmi tədqiqat proqramları həyata keçirir və Türk dünyasının inkişafına öz töhfələrini verirlər. İğdır şəhərinin və universitetinin onun üçün doğma olduğunu deyən akademik İsa Həbibbəyli bir sıra xatirələrini bölüşüb, birgə əməkdaşlıq üçün AMEA tərəfindən zəruri dəstək veriləcəyini söyləyib.

AMEA rəhbəri qeyd edib ki, AMEA Rəyasət Heyətinin 30 aprel 2026-cı il tarixli qərarı ilə professor Ekrem Gürel Azərbaycan-Türkiyə elmi əlaqələrinin inkişafına verdiyi töhfələrə görə AMEA Rəyasət Heyətinin Fəxri professoru seçilib və bu ada layiq görülən birinci alimdir.

Sonra çıxış edən professor Ekrem Gürel bu adı böyük qürur və məsuliyyət hissi ilə qəbul etdiyini deyib. Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" sözlərini bütün varlığı ilə qəlbində hiss etdiyini deyən Ekrem Gürel bu mükafatın həyatı boyu aldığı ən qiymətli hədiyyə olduğunu söyləyib. İsmayıl bəy Qaspıralının "Dildə, işdə, fikirdə birlik" sözlərini xatırladan alim Zəngəzur dəhlizinin açılması ilə əlaqələrimizin daha da inkişaf edəcəyini vurğulayıb.

Mərasimdə çıxış edən İğdır İl Emniyet Müdürü Niyazi Turgay səmimi qonaqpərvərliyə görə minnətdarlığını bildirib, Azərbaycanda olmaqdan məmnunluğunu dilə gətirib.

Daha sonra professor Ekrem Gürelə AMEA Rəyasət Heyətinin Fəxri professoru diplomu və mantiyası təqdim olunub. Həmçinin qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

# Ana dili: kimlik və gələcək

**Mayın 25-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Elm və Təhsil Nazirliyi, AMEA və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə "Ana dili: kimlik və gələcək" mövzusunda gənclərin iştirakı ilə respublika konfransı keçirilib.**



Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Açılış mərasimində çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycan dilinin saflığının qorunmasında nitq mədəniyyətinin xüsusi rolunu vurğulayıb, bütün sahələrdə ədəbi dil normalarına riayət edilməsinin



vacibliyini qeyd edib. AMEA-da müstəqillik dövrünün prinsipləri əsasında Azərbaycan dilinin qrammatikasının yeni konseptual model üzrə hazırlanması istiqamətində işlərin davam etdirildiyini diqqətə çatdıran akademik bildirib ki, dilin inkişafına qayğı inkişaf etmiş cəmiyyətlərin əksəriyyətində dövlət siyasəti səviyyəsində həyata keçirilir: "Azərbaycanda da Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu məqsədyönlü dil siyasəti mövcuddur. Ulu Öndərin 1969-cu ildə etdiyi çıxış sovet məkanında geniş rezonans doğurmuşdu. Çünki həmin dövrədək rəsmi tədbirlərdə ana dilində çıxış etmək geniş yayılmamışdı. Ulu Öndər Heydər Əliyev Azərbaycan dili məsələsində hər zaman qətiyyətli mövqe nümayiş etdirib. Prezident İlham Əliyev həmin siyasəti uğurla davam etdirir. Prezidentin rəhbərlik etdiyi Dil Komissiyası dövlətin dilimizə göstərdiyi qayğının bariz nümunəsidir".

Akademik İsa Həbibbəyli qeyd edib ki, dövlətimizin başçısı dil məsələsini daim prioritet istiqamətlərdən biri kimi diqqətdə saxlayır: "Azərbaycan dilinin saflığının qorunması, onun daxili imkanlar hesabına zənginləşdirilməsi, müasir dövrdə terminologiya və toponimika məsələlərinin inkişaf etdirilməsi qarşıda duran əsas vəzifələrdəndir. Ana dilimizin zəngin imkanlarından istifadə etmək və onu qorumaq hər birimizin borcudur".

Akademik İsa Həbibbəyli xatırladıb ki, sovet dövründə Azərbaycan Dövlət Universitetində Azərbaycan dilinin qrammatikasına dair hazırlanan dərsliklər Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə dövlət mükafatına layiq görülmüşdü. Bildirib ki, hazırda Qərbi Azərbaycan Dialektoloji Atlası hazırlanır. Eyni zamanda, Dərbənd Azərbaycanının Dialektoloji Atlasının hazırlanması planlaşdırılır.

AMEA rəhbəri qeyd edib ki, bu gün dil sürətlə inkişaf edir və ona davamlı olaraq yeni sözlər daxil olur: "Biz dünyanın istifadə etdiyi terminlərdən tam imtina edə bilmərik. Ancaq həmin terminlərin Azərbaycan dilində qarşılığı varsa, dilimizin saflığını qorumaq naminə məhz bu qarşılıqlardan istifadə etməliyik. Terminologiya üzrə lüğətlərin hazırlanması xüsusi əhəmiyyət daşıyır. AMEA-nın elmi-tədqiqat müəssisələrində müstəqillik illərində 100 terminoloji lüğət hazırlanıb".

Akademik İsa Həbibbəyli bildirib ki, AMEA-da Azərbaycan dilinin qrammatikasına dair elmi səviyyədə leksika, fonetika və sintaksis bölmələri çap olunub. Morfologiya bölməsinin də ilin sonunadək çap edilməsi nəzərdə tutulur. O bildirib ki, bu iş Azərbaycan dilinin saflığının qorunmasına göstərilən elmi dəstəyin mühüm ifadəsi olacaq.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov ana dilinin dövlətçilik, milli kimlik və mədəni təhlükəsizlik baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. O bildirib ki, qloballaşma, informasiya texnologiyalarının, süni intellektin sürətli inkişafı və kütləvi kommunikasiya vasitələrinin təsiri nəticəsində milli dillər yeni çağırışlarla qarşılaşır. Nazir müavininin sözlərinə görə, ana dilinin unudulması və onun həddindən artıq alınma sözlərlə yüklənməsi milli şüura və milli kimliyə təsirsiz ötüşmür. Bu baxımdan ana dilinin qorunması yalnız dil məsələsi deyil, həm də milli özünüdərk, mənəvi dəyərlərin yaşadılması və cəmiyyətin gələcəyi ilə bağlı mühüm məsələdir. Firudin Qurbanov qeyd edib ki, ana dili insanın dünyagörüşünün formalaşmasında, mənəvi aləminin zənginləşməsində, keyfiyyətli təhsil almasında və milli mənsubiyyətinin ifadəsində mühüm rol oynayır.

ADPU-nun rektoru professor Cəfər Cəfərov isə ana dilini sevən və dərindən bilən müəllimin milli dəyərlərə bağlı, vətənpərvər vətəndaş yetişdirdiyini qeyd edib. O bildirib ki, dilin qorunması və gələcək nəsillərə ötürülməsi hər bir alim, müəllim və tədqiqatçının mühüm məsuliyyətidir. ADPU-nun prorektoru professor Mahirə Hüseynova çıxışında Azərbaycan dilinin milli kimliyin formalaşmasında mühüm rolundan danışıb, dilçilik sahəsində mövcud məsələlərin həllində gənc tədqiqatçıların elmi fəaliyyətinin əhəmiyyətini vurğulayıb. O, həmçinin tarixi toponimlərin və dialektizmlərin milli yaddaşın qorunmasındakı roluna diqqət çəkib.

Açılış mərasimində çıxış edən digər iştirakçılar Azərbaycan dilinin tarixi inkişaf yolu, müasir çağırışlar şəraitində dil siyasəti, rəqəmsallaşma dövründə ana dilinin qorunması, gənclərin nitq mədəniyyəti və dilə bağlılığının artırılması məsələlərindən danışıblar. Çıxışlarda Prezident İlham Əliyevin rəhbərliyi ilə ana dilinin qorunması, inkişaf etdirilməsi və beynəlxalq müstəvidə təbliği istiqamətində həyata keçirilən ardıcıl dövlət siyasətinin əhəmiyyəti xüsusi vurğulanıb. Qeyd olunub ki, bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər Azərbaycan dilinin saflığının qorunmasına, norma və qaydalarına riayət olunmasına, eləcə də rəqəmsal mühitdə mövqeyinin gücləndirilməsinə mühüm töhfə verir.

Konfrans panel müzakirələrlə davam edib. Panel sessiyalarında ana dilinin milli kimliyin formalaşmasındakı rolu, perspektivləri və rəqəmsal transformasiya dövründə Azərbaycan dilinin mövqeyi ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, konfransın məqsədi dövlət dilinin qorunması və inkişaf etdirilməsi, gənclər arasında ana dilinə hörmət və bağlılığın gücləndirilməsi, Azərbaycan dilinin milli kimliyin və milli-mənəvi dəyərlərin formalaşmasındakı rolunun təşviqindən ibarətdir.

# Akademik İsa Həbibbəyli "ICSEGT 2026" beynəlxalq konfransında çıxış edib

**İyunun 2-də Odlar Yurdu Universitetinin təşkilatçılığı ilə "3rd International Conference on Smart Environment and Green Technologies - ICSEGT 2026" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**



Dünyanın 30-dan çox ölkəsindən alim, tədqiqatçı və akademik mütəxəssisləri bir araya gətirən konfrans yaşıl texnologiyalar, süni intellekt, bərpa olunan enerji, ağıllı ətraf mühit və davamlı inkişaf istiqamətlərində aktual elmi müzakirələr üçün mühüm platforma rolunu oynayır.

Açılış mərasimində çıxış edən Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev beynəlxalq elmi əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, konfransın Azərbaycanın qlobal elmi məkanda mövqeyinin möhkəmlənməsinə töhfə verdiyini bildirib.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, Milli Məclis sədrinin müavinləri - akademik Rafael Hüseynov və AMEA-nın müxbir üzvü Musa Qasımlı, Odlar Yurdu Universitetinin prorektoru Fəxrəddin Məmmədov və digər rəsmi şəxslər konfransın müxtəlif ölkələrdən olan alim və tədqiqatçıları bir araya gətirərək elmi bilik mübadiləsi və yeni əməkdaşlıqlar üçün geniş imkanlar yaratdığını, yaşıl texnologiyalar və ağıllı ətraf mühitin gələcəyin inkişaf modelinin əsas istiqamətlərindən biri olduğunu vurğulayıblar.

Hibrid formatda təşkil olunan tədbirdə, o cümlədən ağıllı ətraf mühit və ekosistemlər, bərpa olunan enerji, yaşıl texnologiyalar, süni intellekt və maşın öyrənməsi, əşyaların interneti (IoT), kiber-fiziki sistemlər, davamlı inkişaf, ekoloji kimya, biotexnologiya, dəqiq kənd təsərrüfatı, davamlı memarlıq və digər aktual elmi istiqamətlər üzrə müzakirələr aparılıb.

Qeyd edək ki, ICSEGT 2026 beynəlxalq elmi konfransı qlobal ekoloji çağırışlar, yaşıl texnologiyalar və dayanıqlı inkişaf sahəsində yeni yanaşmaların müzakirəsi üçün mühüm platforma rolunu oynayır.

# AMEA-da "44 gün: Qarabağ işğaldan - azadlığa" kitabının təqdimatı

**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Dublində Triniti Universitetinin professoru Patrik Uolş və Gəncə Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru Səidə İsmayılzadənin "44 gün: Qarabağ işğaldan - azadlığa" kitabının təqdimat mərasimi keçirilib.**



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli xarici və azərbaycanlı alimlərin həmmüəllifliyi ilə ərsəyə gələn kitabın elmi əhəmiyyətini qeyd edib. O, nəşrin Qarabağ probleminin tarixi kökləri, səbəbləri, mərhələləri, gedişatı və nəticələrini sistemli şəkildə araşdıran ilk fundamental elmi tədqiqatlardan biri olduğunu vurğulayıb.

Akademik İsa Həbibbəyli Azərbaycan və ingilis dillərində nəşr olunan bu monoqrafiyanın beynəlxalq elmi ictimaiyyət üçün dəyərli mənbə olduğunu qeyd edib, əsəri Avropa və Azərbaycan alimlərinin elmi əməkdaşlığının uğurlu nümunəsi kimi səciyyələndirib.

Kitabda Qarabağın ən qədim dövrlərdən bugünədək olan tarixinin mötəbər elmi mənbələr əsasında dərindən tədqiq olunduğunu deyən AMEA prezidenti vurğulayıb ki, nəşr Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

AMEA rəhbəri qeyd edib ki, tarixi faktların təhrifinə yol verməden, elmi həqiqətlər əsasında qələmə alınmış monoqrafiyada Qarabağ sözünün etimologiyasından başlayaraq Qafqaz Albaniyası dövrü, Hun və Xəzər imperiyaları, Səlcuqlar və Atabəylər mərhələləri, xanlıqlar dövrü və müasir tarix xronoloji ardıcıllıqla araşdırılıb. Bu faktlar Qarabağın qədim və əzəli Azərbaycan torpağı olduğunu elmi əsaslarla təsdiqləyir.

O, kitabda Birinci Qarabağ müharibəsi ilə yanaşı, İkinci Qarabağ müharibəsinin də tarixi reallıqlarının geniş şəkildə öz əksini tapdığını bildirib. Qeyd edib ki, əsərdə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə aparılan Vətən müharibəsinin cəmi 44 gün ərzində tarixi Zəfərlə nəticələnməsi real faktlar və sənədlər əsasında təqdim olunub.

Akademik İsa Həbibbəyli çıxışının sonunda bu kimi təqdimat mərasimlərinin keçirilməsinin Avropa alimləri ilə elmi əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, birgə tədqiqatların aparılması və Azərbaycanla bağlı elmi əsərlərin beynəlxalq miqyasda nəşr olunması üçün mühüm platforma rolunu oynadığını vurğulayıb.

Sonra siyasi şərhçi, Böyük Britaniya Kral Cəmiyyətinin üzvü, fəlsəfə üzrə fəlsəfə doktoru Nil Uotson "Cənubi Qafqazın yeni reallığı: Patrik Uolşun Qarabağ konsepsiyası" adlı məruzəsini təqdim edib.

Məruzəçi kitabın həmmüəllifi olan professor Patrik Uolşun Azərbaycana və Qarabağ müharibəsi mövzusuna öz prinsiplərinə sadiq qalaraq, cəsarətli və obyektiv tarixçi mövqeyindən yanaşdığını bildirib. O, Patrik Uolşun 2018-ci ildə Azərbaycana və xüsusilə Milli Elmlər Akademiyasına səfərinin alimdə Azərbaycana qarşı böyük maraq yaratdığını söyləyib.

Nil Uotson ictimaiyyətə təqdim edilən nəşrin məziyyətlərindən də danışaraq qeyd edib ki, geniş araşdırmalara əsaslanan fundamental akademik əsər olan bu kitab müəlliflərin müasir hadisələrə analitik yanaşmasını əks etdirir. Əsərdə insan amilinə xüsusi diqqət ayrılır. Bu yanaşma müasir dünyanın mürəkkəbliyini, xarici qüvvələr və təcavüzkar erməni liderləri tərəfindən alovlandırılan müharibəni, Azərbaycanı tarixi qələbəyə aparan siyasi prosesləri, sülh təşəbbüslərini, eləcə də azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı quruculuq və bərpa işlərini daha yaxşı anlamağa imkan yaradır.

Tədbirdə, həmçinin AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, prof. İlham Məmmədzadə "Tarixi həqiqət və Zəfər fəlsəfəsi: "44 gün: Qarabağ - işğaldan azadlığa" kitabı haqqında söz", Gəncə Dövlət Universitetinin dosenti, tar.ü.f.d. Səidə İsmayılzadə "Tarixi yaddaş və dövlətçilik kontekstində Qarabağ məsələsi, ABŞ-nin Miçiqan Universitetinin müəllimi, s.e.ü.f.d. Mat Qarnet "Avropadan baxanda Qarabağ", AMEA-nın Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tar.ü.f.d., dos. Cəbi Bəhramov "Qarabağ: qədim tarixdən müasir münaqişəyə qədər sistemli elmi baxış" və Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, fəl.ü.f.d., dos. Zöhrə Əliyeva "Xalqları birləşdirən dəyərlər: insanlıq və qarşılıqlı hörmət" adlı məruzələrlə çıxış ediblər.

# VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı



**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Əsas binasının önündəki Elmlər Akademiyası parkında VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı (VI LitBookFest) keçirilib.**

Festival Beynəlxalq Türk Müəllifləri Birliyinin (BTMB) təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi, Milli Məclisin Mədəniyyət komitəsi, Bakı şəhər İcra Hakimiyyəti, Azərbaycan Milli Elmlər Akademiyası, Beynəlxalq Türk Akademiyası, TÜRKSOY, TİKA, Yunus Əmrə İnstitutu və digər qurumların dəstəyi ilə təşkil olunub.

Açılış mərasimində öncə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib, Türk dünyası şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalını Azərbaycanın Türk dünyası ilə əlaqələrinin ardıcıl şəkildə qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin məntiqi nəticəsi kimi dəyərləndirib. Bildirib ki, bu festival Türk dünyası ölkələri arasında inteqrasiya proseslərinin dərinləşməsinə, elmi, ədəbi və mədəni əməkdaşlığın coğrafiyasının genişlənməsinə mühüm töhfə verməkdədir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Birinci Türk Dünyası Ədəbiyyat və Kitab Festivalından ötən dövr ərzində aparılan müşahidələr festivalın əhatə dairəsinin ildən-ilə genişləndiyini, iştirakçı ölkələrin sayının artdığını və Türk dünyasının intellektual, yaradıcı potensialının daha geniş platformada bir araya gəldiyini göstərir: "İlk dəfə Bakıda əsası qoyulan və artıq 6-cı dəfə Azərbaycanda təşkil edilən bu mötəbər mədəniyyət hadisəsi bu il qardaş Türkiyə Cümhuriyyətində də eyni ruh və yüksək təşkilati səviyyə ilə keçirilib və uğurla davam etdirilib".

AMEA prezidentinin sözlərinə görə, Türk Dünyası Ədəbiyyat və Kitab Festivalları kitabların təqdim olunduğu tədbir olmaqla yanaşı, həm də Türk dünyasının alimləri, yazıçıları, ədibləri, akademik qurumları və universitetləri arasında əlaqələrin möhkəmlənməsinə, yeni elmi və ədəbi layihələrin formalaşmasına real zəmin yaradır. Festivallarda iştirak edən alim və yazarlar arasında yeni əməkdaşlıq təşəbbüsləri meydana çıxır, ortaq nəşrlər hazırlanır, qarşılıqlı dəvətlər və birgə layihələr dövriyyəyə daxil olur.

Alim festivalın Türk dünyasının birliyinə, həmrəyliyinə və əməkdaşlığına mühüm təsir göstərən, ortaq dəyərlərə doğru atılan strateji addımlardan biri olduğunu vurğulayıb, Türk dünyası ilə əlaqələrin genişləndirilməsinin zəruri olduğu indiki tarixi mərhələdə VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının bu inteqrasiyanın daha da dərinləşməsinə sanballı töhfələr verdiyini qeyd edib. Bildirib ki, son illərdə Azərbaycanda kitab nəşriyyatlarında Türk dünyasını əhatə edən alimlərin və müəlliflərin əsərlərinin nəşr miqyası iki dəfədən çox artıb. Oxşar proses digər türk dövlətlərində də müşahidə olunur. Bu fakt Türk Dünyası Ədəbiyyat və Kitab Festivallarının Türk dünyası ziyalıları və ədibləri arasında möhkəm mənəvi-intellektual körpü rolunu oynadığını açıq şəkildə sübut edir.

Akademik İsa Həbibbəyli çıxışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki proqram xarakterli çıxışına da toxunaraq bildirib ki, dövlət başçısı Türk dünyası ilə əməkdaşlığı Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib və Türk Dövlətləri Təşkilatını vahid bir ailə kimi dəyərləndirib. AMEA prezidenti mövcud tarixi mərhələnin Türk dünyası ilə inteqrasiyanın genişlənməsi baxımından yeni imkanlar yaratdığını və VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının da məhz bu strateji prosesin ayrılmaz tərkib hissəsi olduğunu diqqətə çatdırıb.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 22 oktyabr 2025-ci il tarixli Sərəncamını xatırladan akademik İsa Həbibbəyli festival çərçivəsində Birinci Türkoloji Qurultaya həsr olunmuş kitabların danümayiş etdiriləcəyini bildirib. O, Qurultayın ideyalarının bu gün aktuallığını qoruyub saxladığını və Azərbaycanda, qardaş Türkiyədə, eləcə də Orta Asiya respublikalarında elmi-mədəni əməkdaşlığın inkişafına xidmət etdiyini vurğulayıb. Əlavə edib ki, Birinci Türkoloji Qurultayın ideyaları əsasında formalaşan akademik və ədəbi birlik bu tarixi dəyərlərin yaşadığını və inkişaf etdiyini təsdiqləyir.

"Bu festival kitabın, elmin və mədəniyyətin təntənəsi olmaqla yanaşı, Türk dünyasında birlik və həmrəyliyin rəmzidir", - deyə qeyd edən AMEA rəhbəri internetin, süni intellektin və rəqəmsal cəmiyyətdə artan informasiya rəqabəti fonunda bu festivalın kitabın rolunun gücləndirilməsi, oxu mədəniyyətinə marağın artırılması baxımından xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Daha sonra Azərbaycan Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid çıxış edərək festivalın böyük söz bayramı olduğunu, türk xalqları arasında ədəbi-mədəni əlaqələri gücləndirməyə xidmət etdiyini bildirib.

Tədbirdə , həmçinin Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgün, millət vəkili Elçin Mirzəbəyli, Şimali Kipr Türk Cümhuriyyətinin Bakı təmsilçisi Ufuk Turqaner, Beynəlxalq Türk Akademiyasının təmsilçisi, professor Əbülfəz Süleymanlı, Özbəkistan Asiya Texniki Universitetinin rektoru Laçın Rəhmanov, Beynəlxalq Türk Müəllifləri Birliyinin sədri Xəyal Rza və digərləri çıxış edərək Türk dünyasının sarsılmaz birliyinə, türk dövlətləri arasındakı əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcək Festivalın əhəmiyyətindən danışıblar.

Festival ədəbi-bədii kompozisiyalarla davam etdirilib.

Qeyd edək ki, festivalın ilk günü Azərbaycan-Türkiyə, ikinci günü Özbəkistan-Türkmənistan, üçüncü günü Qazaxıstan-Qırğızıstan, dördüncü günü Macarıstan-Şimali Kipr Türk Respublikası, sonuncu günü isə Türk Dünyası - Yunus Əmrə günü olaraq adlandırılıb.

# AMEA prezidenti: Qərbi Azərbaycan toponimlərinin saxtalaşdırılması araşdırılır

**Qərbi Azərbaycana qayıdış çağırışına ölkəmizdə ilk səs verən qurumlardan biri də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) olub. 2024-cü ilin dekabr ayının sonunda, yeni bu ideyanın səsləndiyi vaxtdan cəmi bir həftə keçməmiş Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı ilə Qərbi Azərbaycan məsələlərini tədqiq edib öyrənmək üçün Akademiyanın müxtəlif strukturlarında "Qərbi Azərbaycan tarixi", "Qərbi Azərbaycan folkloru", "Qərbi Azərbaycan toponimiyası" və "Qərbi Azərbaycanla bağlı əlyazmaların tədqiqi" adlı şöbələr fəaliyyətə başlayıb.**




Bunu AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Bakı Dövlət Universiteti (BDU) və Qərbi Azərbaycan İcmasının (QAİ) birgə təşkilatçılığı ilə keçirilən "Qərbi Azərbaycana qayıdış: milli ideyanın yeni mərhələsi kimi" mövzusunda I beynəlxalq elmi konfransda deyib.

O bildirib ki, son vaxtlarda Qərbi Azərbaycan İcmasında Qərbi Azərbaycanla bağlı kitabxananın yaradılmasına akademiya tərəfindən diqqət ayrılır: "Artıq Akademiyanın bir neçə institutu Qərbi Azərbaycan İcmasındakı kitabxananın zənginləşməsinə öz köməyini göstərib. Ümumiləşmiş şəkildə artıq Azərbaycan Milli Elmlər Akademiyasında Qərbi Azərbaycanla əlaqədar olaraq kiçik bir kitabxana həcmində kitablar, məqalələr yazılıb. Yaxşı cəhətlərdən biri də odur ki, həmin kitabların, xüsusən məqalələrin böyük əksəriyyəti həm də xarici ölkələrdə, müxtəlif dillərdə çap olunub. Bunun Qərbi Azərbaycan həqiqətlərinin dünyaya yayılmasında özünəməxsus rolu vardır. Prezident İlham Əliyev Qərbi Azərbaycanla bağlı tədqiqatların aparılmasının əhəmiyyətini bir daha cəmiyyətin diqqət mərkəzinə çəkib".

İsa Həbibbəyli qeyd edib ki, xüsusən Qərbi Azərbaycan toponimlərinin öyrənilməsinə diqqət artırılıb: "Azərbaycan alimləri müəyyən ediblər ki, Ermənistan Respublikasının Ali Soveti sovet hakimiyyəti illərində, lap bu günlərə - 2018-ci ilə qədər Qərbi Azərbaycan toponimləri ilə bağlı Ermənistan dövlətinin rəsmi və ali dövlət qurumları tərəfindən qərar verilərək Azərbaycan toponimlərini saxta yolla, süni yolla dəyişdiriblər. Belə toponimlərin sayı 600-dən çoxdur. Bu toponimlərin bərpa olunması, onların Azərbaycan mənşəyinin izah olunması, bu barədə tədqiqatların aparılması da diqqət mərkəzindədir. Artıq bu istiqamətdə bir neçə kitab çap olunub. Qərbi Azərbaycanla bağlı xəritələr üzərində iş aparılır. Mən elə bilirəm ki, alimlərimizin dəqiqləşdirdiyi, Azərbaycan varlığını isbat edən xəritələri də Azərbaycan cəmiyyəti yaxın vaxtlarda ala biləcək. Ümumiyyətlə, Qərbi Azərbaycana qayıdış ideyası Azərbaycanın minillik tarixində və müstəqil Azərbaycan dövlətinin indiki siyasi-ideoloji mühitində Prezident İlham Əliyevin adı ilə bağlı olan və Azərbaycanın bütövlüyü ideyasını ifadə edən tarixi bir konsepsiyadır. Bu yeganə konsepsiyadır ki, ərazi iddiası olmayan bütövlük konsepsiyasıdır. Bu qayıdış konsepsiyası, eyni zamanda, barış konsepsiyasıdır. İnanırıq ki, yaxın günlərdə İrəvanda ədalət qalib gələcək, Qərbi Azərbaycana qayıdışla Ermənistan Azərbaycanla barışda da öz yerini tapacaq".

# AMEA və "Springer" nəşriyyatı arasında əməkdaşlıq imkanları barədə təkliflər verilib



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Polşa Elmlər Akademiyasının Sistem Araşdırmaları İnstitutunun əməkdaşı, "Springer" nəşriyyatının 7 kitab seriyasının və iki jurnalının baş redaktoru süni intellekt üzrə tanınmış mütəxəssis, akademik Janusz Kacprzyk ilə görüşüb.**

Görüşdə çıxış edən akademik İsa Həbibbəyli AMEA-da həyata keçirilən islahatlar, eləcə də süni intellekt və rəqəmsal texnologiyalar istiqamətində aparılan tədqiqatlar barədə məlumat verib. Qeyd edib ki, bu gün Akademiyada humanitar və ictimai elmlər üzrə mühüm tədqiqatlar aparılır və süni intellektin bu elm sahələrində tətbiqi imkanları araşdırılır.

Akademiyanın elmi nəşrlər sahəsində zəngin təcrübəsi olduğunu deyən akademik İsa Həbibbəyli bu gün AMEA-nın Rəyasət Heyəti və institutları tərəfindən 30-dan artıq jurnalın çap edildiyini bildirib. Diqqətə çatdırıb ki, bu nəşrlərdən 5-i nüfuzlu "Scopus" bazasına daxildir və beynəlxalq elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. AMEA rəhbəri digər elmi jurnalların da səviyyəsinin qaldırılması, "Scopus" və "Web of Science" kimi nüfuzlu bazalara daxil edilməsi istiqamətində işlər həyata keçirildiyini söyləyib.

Bu günlərdə AMEA tərəfindən ölkəmizdə süni intellektə həsr edilmiş ilk jurnalın təsis olunduğunu deyən akademik İsa Həbibbəyli nəşrin ingilis dilində fəaliyyət göstərəcəyini bildirib, bu istiqamətdə "Springer" nəşriyyatı ilə birgə əməkdaşlıq imkanlarını təklif edib. Həmçinin Akademiyada işıq üzü görən sanballı nəşrlərin və keçirilən nüfuzlu konfransların materiallarının "Springer"də çapı ilə bağlı təkliflərini bildirib.

Sonra çıxış edən akademik Janusz Kacprzyk "Springer" nəşriyyatında rəhbəri olduğu kitab seriyaları barədə məlumat verib, səsləndirilən təkliflərə dair şəxsi təcrübəsini bölüşüb. O, həmçinin AMEA ilə gələcək əməkdaşlıq istiqamətlərinə dair təkliflərini təqdim edib.

AMEA-nın "Elm" nəşriyyatının direktoru filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov isə çıxışında humanitar və ictimai elmlərdə süni intellektin tətbiqi mövzularında akademik kitab seriyalarının "Springer" nəşriyyatında çapını təklif edib.

Qonaq, həmçinin AMEA-nın Rəyasət Heyətinin binası, buradakı Meridian zalı və Akademiya muzeyi ilə tanış olub, AMEA-nın tarixi barədə məlumatlandırılıb.

# Azərbaycan Türk dünyasının tibb və innovasiya mərkəzinə çevrilir

**Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Kardiologiya İnstitutu və Milli Onkologiya Mərkəzinin birgə təşkilatçılığı ilə Türk Dövlətləri Kardioonkologiya Konqresi və Birinci Beynəlxalq Süni İntellekt və Robotik Kardiologiya Sammiti keçirilib.**



AZƏRTAC xəbər verir ki, Türk dünyasında tibb elmi, innovativ texnologiyalar və beynəlxalq səhiyyə əməkdaşlığı baxımından mühüm əhəmiyyət daşıyan tədbir kardio-onkologiya, süni intellekt, robotik kardiologiya və rəqəmsal səhiyyə sahələrini ilk dəfə vahid beynəlxalq platformada bir araya gətirib. Tədbirdə dünyanın 11 ölkəsindən aparıcı alimlər, beynəlxalq ekspertlər, akademik dairələrin nümayəndələri, səhiyyə sahəsinin rəhbər şəxsləri, tanınmış kardioloqlar, kardioonkoloqlar, aparıcı klinika və tibb müəssisələrinin təmsilçiləri, həmçinin beynəlxalq elmi təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirin rəsmi açılış mərasimində Səhiyyə Nazirliyinin nümayəndələri, Türkiyə Respublikasının Azərbaycandakı səfiri, Şimali Kipr Türk Cümhuriyyətinin, Türkmənistanın və Qırğızıstanın səfirləri və diplomatik nümayəndələri, dövlət qurumlarının rəhbərləri, aparıcı klinika və tibb müəssisələrinin təmsilçiləri, həmçinin beynəlxalq elmi təşkilatların nümayəndələri iştirak ediblər.

Səhiyyə Naziriliyi Elmi-Tədqiqat Kardiologiya İnstitutunun direktoru professor Gülnaz Dadaşova bildirib ki, Türk Dövlətləri Kardioonkologiya Konqresi və Birinci Beynəlxalq Süni İntellekt və Robotik Kardiologiya Sammiti yalnız elmi tədbir deyil, həm də Türk dünyasının ortaq tibbi gələcəyinə yönəlmiş strateji əməkdaşlıq platformasıdır.

Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev çıxışı zamanı bildirib ki, müasir dövrdə səhiyyə sisteminin dayanıqlı inkişafı innovativ texnologiyaların tətbiqi, elmi əməkdaşlığın gücləndirilməsi və tibbi xidmətlərin keyfiyyətinin artırılması ilə birbaşa bağlıdır.

Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün çıxışı zamanı türk dövlətləri arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın strateji əhəmiyyətindən danışıb.

Tədbirdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Türk dünyasında elm, səhiyyə və innovativ texnologiyalar sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Qeyd edək ki, Türk Dövlətləri Kardioonkologiya Konqresi və Birinci Beynəlxalq Süni İntellekt və Robotik Kardiologiya Sammiti Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən ümumilikdə 50 DTT ilə akkreditasiya olunub.

Türk dünyasında ilk dəfə bu miqyasda keçirilən beynəlxalq konqres və sammit region ölkələri arasında tibbi əməkdaşlığın genişlənməsinə, innovativ texnologiyaların səhiyyəyə inteqrasiyasına, elmi bilik mübadiləsinin gücləndirilməsinə və gələcəyin tibbi modelinin formalaşdırılmasına mühüm töhfə verən beynəlxalq platforma kimi qiymətləndirilir.

# Azərbaycanın kibertəhlükəsizlik sahəsində fəaliyyəti beynəlxalq səviyyədə yüksək qiymətləndirilir

**Müasir dövrdə ölkələrin kibertəhlükəsizlik sahəsində hazırlıq səviyyəsinin beynəlxalq standartlar əsasında qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. e-Governance Academy (eGA) beynəlxalq səviyyədə kibertəhlükəsizliyi qiymətləndirən nüfuzlu qurumlardan biridir. Bu qurum 2002-ci ildə Estoniya Hökumətinin Açıq Cəmiyyət İnstitutu (Open Society Institute, OSI) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (The United Nations Development Programme, UNDP) birgə təşəbbüsü əsasında təsis edilib.**




eGA tərəfindən hazırlanmış National Cyber Security Index (NCSI) əsasında hər il ölkələrin kibertəhlükəsizlik səviyyəsinin monitorinqi aparılır, hesabatlar hazırlanır. Qiymətləndirmə kibertəhlükəsizlik siyasəti, kibercinayətkarlıqla mübarizə, risklərin idarə olunması, kiberinsidentlərə cavabvermə, təhsil, tədqiqat, kadr hazırlığı və beynəlxalq əməkdaşlıq da daxil olmaqla 3 indikator, 12 əsas meyar üzrə həyata keçirilir. Bu il də NCSI əsasında ölkələrin kibertəhlükəsizlik üzrə hazırlıq səviyyəsi müxtəlif indikatorlar üzrə qiymətləndirilib və beynəlxalq reytinq elan edilib.

Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunda sözügedən reytinq və Azərbaycanın bu qlobal reytinqdə mövqeyinə dair geniş müzakirələr aparılıb.

AzScienceNet Şəbəkə İdarəetmə Mərkəzinin rəhbəri texnika üzrə fəlsəfə doktoru Babək Nəbiyev bildirib ki, indeksin əsaslandığı 3 indikator, 12 meyar, eləcə də həmin meyarları təşkil edən alt göstəricilərin hər biri ayrı-ayrılıqda təhlil edilib. Onun sözlərinə görə, Azərbaycan bu indeks üzrə mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Belə ki, son reytinq nəticələrinə əsasən, Azərbaycan 2023-cü illə müqayisədə 55 pillə irəliləyərək 145 ölkə arasında 31-ci yerdə qərarlaşıb. Reytinq cədvəlində 30-cu yerdə ABŞ, 32-ci yerdə isə Birləşmiş Ərəb Əmirlikləri yer alır. Eyni zamanda, Koreya Respublikası 33-cü, Yaponiya 35-ci, Niderland 36-cı yerdə təmsil olunur.

Bundan əlavə, aparılan qiymətləndirmələr göstərib ki, Azərbaycan elm və təhsil, eləcə də müvafiq sahədə kadr hazırlığı ilə bağlı alt göstəricilər üzrə müəyyən edilmiş bütün tələblərə tam cavab verərək maksimal nəticə əldə edib və 100 bala layiq görülüb.

Sonra AMEA-nın vitse-prezidenti, institutun baş direktoru akademik Rasim Əliquliyev mövzu ilə bağlı fikirlərini bölüşərək bildirib ki, əldə olunan nəticələr Azərbaycanda kibertəhlükəsizlik sahəsində dövlət siyasətinin uğurla həyata keçirildiyini, milli maraqlara xidmət edən prioritet istiqamətlərdə elmi tədqiqatların aparıldığını və əldə olunan mühüm nəticələrin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini bir daha sübut edir: "Eyni zamanda, bu göstəricilər ölkəmizdə kibertəhlükəsizlik ekosisteminin formalaşdırılmasını, yüksəkixtisaslı kadrların hazırlanmasını, kibersuverenliyə dair tədqiqatların genişləndirilməsini, milli kibertəhlükəsizlik indeksinin yaradılmasını və cəmiyyətin bütün sektorlarını əhatə edən kibertəhlükəsizlik səviyyəsinin sistemli şəkildə qiymətləndirilməsini zəruri edir".

Akademik Rasim Əliquliyev, həmçinin qeyd edib ki, dövlət başçısı tərəfindən təsdiq olunan "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiya" ölkəmizdə kibertəhlükəsizlik sahəsində kompleks tədbirlərin həyata keçirilməsinə və nailiyyətlərin qazanılmasına böyük təkan verib: "Daha yüksək nəticələrin əldə olunması üçün qarşımızda duran yeni vəzifələrin həyata keçirilməsində fəal iştirak etməli, bu istiqamətdə davamlı inkişafın təmin edilməsi məqsədilə elmi dəstəyi gücləndirilməliyik".

# Şərqşünaslıq İnstitutunun ilk direktorunun 120 illik yubileyi qeyd edilib

**İyunun 3-də AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Akademik Əbdülkərim Əlizadə Azərbaycan şərqşünaslıq elminin banilərindən biri kimi" mövzusunda elmi sessiya keçirilib. Tədbir akademik Əbdülkərim Əlizadənin 120 illik yubileyinə həsr olunub.**



Elmi sessiyanı açan AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva Şərqşünaslıq İnstitutunun Azərbaycan elminə görkəmli alimlər bəxş etdiyini və 1958-ci ildə institut yaradılarkən onun ilk direktorunun məhz Əbdülkərim Əlizadə olduğunu deyib. G.Baxşəliyeva akademik Əbdülkərim Əlizadənin Azərbaycan mətnşünaslığının banisi hesab olunduğunu, onun Azərbaycanın orta əsrlər tarixinin, Yaxın Şərq ölkələrinin Səlcuqilər və monqollar dövrünün tanınmış tədqiqatçısı olduğunu bildirib. Alimin mətnşünaslıq sahəsində xidmətlərindən söz açan G.Baxşəliyeva onun Fəzlullah Rəşidəddinin "Came ət-təvarix" və Məhəmməd ibn Hindușah Naxçıvaninin "Dəstur əl-katib fi təyin əl-məratib"inin elmi-tənqidi mətnlərini hazırladığını xüsusi qeyd edib.

Şərqşünaslıq İnstitutunun Yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin müdiri professor Mehdi Kazımov elmi sessiyada "Akademik Əbdülkərim Əlizadənin elmi irsi haqqında" mövzusunda məruzə edib. Mətnşünaslıq sahəsində fəaliyyətin xüsusiyyətlərindən danışan M.Kazımov bu sahədə fəaliyyətdə zəngin təcrübənin, intuisiyanın xüsusi rolunun olduğunu bildirib. O, akademik Əbdülkərim Əlizadədə bu xüsusiyyətlərin yüksək səviyyədə olduğunu və bunun da nəticəsində elmə öz dəyərli töhfələrini verdiyini qeyd edib. Alimin mətnşünaslıq sahəsində ən önəmli işinin Fəzlullah Rəşidəddinin "Came ət-təvarix" əsərinin elmi-tənqidi mətnini hazırlaması olduğunu deyən professor bu ensiklopedik əsərdə Orta Şərq ölkələri, o cümlədən Azərbaycan haqqında geniş məlumatın əks olunduğunu bildirib. Həmçinin XIV əsr alimi Məhəmməd İbn Hindușah Naxçıvaninin "Dəstur əl-katib fi təyin əl-məratib" əsərinin elmi-tənqidi mətnini hazırlamasını qeyd edərək, akademikin elə bu iki işinin adını Azərbaycanın elm tarixinə qızıl hərflərlə yazmağa yetərli olduğunu bildirib. Məruzəçi Əbdülkərim Əlizadənin Nizamişünaslıq sahəsində fəaliyyətini xüsusi qeyd edib.

Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi dosent Gülər Qafqazlı elmi sessiyada "Akademik Əbdülkərim Əlizadə Azərbaycanın hüdudlarından kənarda" mövzusunda məruzə edib. Alimin orta əsr Azərbaycanı, Elxanilər dövrü, monqol hakimiyyəti və farsdilli tarixi mənbələrin tədqiqi sahəsində xidmətlərindən danışan G.Qafqazlı onun bu fəaliyyətinin beynəlxalq şərqşünaslıq elmi tərəfindən də yüksək qiymətləndirildiyini bildirib. Yapon şərqşünası Siyiçi Kitiqavanın onun əsərlərini "sovet şərqşünaslığının ciddi elmi nailiyyətlərindən biri" kimi xarakterizə etdiyini deyən məruzəçi müasir tarixçi Harun Yılmazın isə akademik Əbdülkərim Əlizadəni sovet dövründə Azərbaycan milli tarix konsepsiyasının formalaşdırılmasında əsas simalardan biri hesab etdiyini vurğulayıb. G.Qafqazlı onun əsərlərinin fars, türk və qismən ingilis dillərinə tərcümə edilərək beynəlxalq aləmə yayıldığını vurğulayıb.

Sonra məruzələr ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb. İnstitutun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Laura Orucova və böyük elmi işçi tarix üzrə fəlsəfə doktoru Bəşarət Bəşirova akademik Əbdülkərim Əlizadə haqqında xatirələrini bölüşüblər.

# Yarımkeçiricilər fizikası sahəsində elmi məktəb yaratmış alim

**Respublikamızda fizika elminin inkişafında layiqli xidmətləri olan tanınmış alim, Azərbaycan MEA-nın fizika üzrə ilk və indiyədək yeganə qadın üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Səlimə İbrahim qızı Mehdiyevanın 85 yaşı tamam olur.**



Səlimə Mehdiyeva 1941-ci il may ayının 21-də Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində anadan olmuş, 1958-ci ildə Bakı şəhəri 14 saylı orta məktəbi, 1963-cü ildə indiki Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirmiş, həmin ildə Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunda aspiranturaya daxil olaraq burada görkəmli alim akademik Həsən Abdullayevin elmi rəhbərliyi ilə selen yarımkeçiricisinin müxtəlif aqreqat hallarının fiziki xassələrinin tədqiqi üzrə elmi-tədqiqat işləri aparmağa başlamışdır. Qısa müddətdə bu istiqamətdə maraqlı elmi nəticələr almağa nail olaraq onları həmin dövrün çox nüfuzlu ittifaq və xarici jurnallarında (SSRİ EA-nın Məruzələri, Physica Status Solidi, Physics Letters, Физика и техника полупроводников və s.) dərc etdirmiş, bir neçə beynəlxalq konfranslarda məruzə etmişdir. O, apardığı tədqiqatlar və aldığı yeni elmi nəticələr əsasında 1967-ci ildə Vilnyus Dövlət Universitetində "Yüksək təmizlikli selenin bəzi fiziki xassələri" mövzusunda namizədlik, 1988-ci ildə "Selen və polietilen əsasında xətti polimer yarımkeçirici və dielektriklərin quruluşu və fiziki xassələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1993-cü ildə professor elmi adı almış, 2017-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Professor Səlimə Mehdiyeva Fizika İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, uzun müddət İnstitutun Elmi katibi, 1976-cı ildən 2021-ci ilədək Fizika İnstitutunda təşkil etdiyi yeni "Qeyri-krisrallik yarımkeçiricilərin fizikası" laboratoriyasının rəhbəri, hazırda həmin laboratoriyada baş elmi işçi, 1995-2002-ci illərdə elmi işlər üzrə direktor müavini vəzifələrində işləmiş, əməyə məsuliyyətli və yaradıcı yanaşması, böyük təşkilatçılıq bacarığı, əzmkarlığı, qayğıkeşliyi hesabına rəhbərliyin və kollektivin böyük hörmətini qazanmışdır. Texnikada geniş tətbiq olunan selen yarımkeçiricisinin, onun əsasında polimer sistemlərin və şüşəvarı xalkogenidlərin kompleks tədqiqi ilə məşğul olan professor S. Mehdiyeva bu sahədə elmi məktəb yaratmış, fundamental elmi və tətbiq əhəmiyyətli nəticələr almışdır. Həmin tədqiqatlar sayəsində selendə köçürmə hadisələrinin, tarazlıqda olmayan bir sıra elektron proseslərinin mexanizmləri, amorf, poli- və monokristal, maye selenin elektrik, fotoelektrik, istilik, mexaniki xassələrinə müxtəlif aşqarların təsir qanunauyğunluqları, bu əsasda selenin fiziki xassələrinin məqsədyönümlü idarə olunma üsulları müəyyənləşdirilmişdir. Selenin xassələrindəki özünəməxsusluqların onun polimer quruluşu və onda olan, adi üsullarla təmizlənilməyən oksigenlə bağlılığı aşkarlanmışdır. Bu nəticələr selen cihazlarının, xüsusilə selen düzləndiriciləri və elektrofotoqrafiya lövhələrinin parametrlərinin yaxşılaşdırılmasına köməklik göstərmişdir.

Selen əsasında şüşəvarı sistemlərin fiziki xassələrinin tədqiqi kristallaşmaya davamlı fotohəssas, yüksək elektrik müqaviməti materialların alınmasına və onların tətbiq imkanlarının genişləndirilməsinə imkan yaratmışdır. Bu materialların elektrik, fotoelektrik, optik xassələrinə halogen aşqarlarının təsirinin kompleks tədqiqi vidokonlar üçün yüksək həssaslıqlı fotohədəfin işlənib hazırlanmasına gətirmişdir. Habelə, şüşəvarı xalkogenidlərdə işığın Raman səpilməsinə, xətti və qeyri- xətti sındırma əmsallarına, optik xassələrə tərkibin və aşqarlarm təsirinin tədqiqi nəticəsində yaxın və orta infraqırmızı oblastda həssas olan fiber-ötürücülər üçün yararlı funksional materiallar təklif olunmuşdur.

Görkəmli alimin və onun tələbələrinin aldığı elmi nəticələr yeni elektron texnikası çeviricilərinin yaradılmasında, mövcud cihazların xarakteristikalarının yaxşılaşdırımasında əhəmiyyət kəsb etdiyi kimi, polimer yarımkeçiricilərdə, qeyri-kristallik materiallarda, xüsusilə amorf şüşəvarı sistemlərdə baş verən taraz və qeyri-taraz elektron hadisələrinin mexanizminin araşdırılması üçün faydalıdır, bu nəticələrə dünya elmi ədəbiyyatında çox sayda istinadlar vardır.

Professor S.Mehdiyeva bir monoqrafiyanın, böyük əksəriyyəti yüksək reytinqli beynəlxalq jurnallarda dərc olunmuş 350-ə yaxın elmi əsərin, 14 müəlliflik şəhadətnaməsi və patentin müəllifidir. Elmi rəhbərliyi və məsləhətçiliyi ilə 2 elmlər doktoru, 16 fəlsəfə doktoru yetişdirilmişdir. O, bir neçə beynəlxalq qrant layihələrinin iştirakçısı olmuş, 40-dan artıq beynəlxalq və Respublika konfransda məruzə ilə çıxış etmişdir, müntəzəm olaraq müxtəlif Dissertasiya şuraları tərəfindən elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarına rəsmi opponentliyə dəvət olunur.

Alim fəal elmi-tədqiqat işi ilə yanaşı böyük elmi-təşkilatı və ictimai iş də aparır. O, 1969-78-ci illərdə Azərbaycan MEA Fizika İnstitutunun Elmi katibi, 1995 - 2002-ci illərdə elmi işlər üzrə direktor müavini, uzun müddət laboratoriya rəhbəri vəzifələrində çalışmış, İnstitutda elmi-tədqiqat və tətbiq işlərinin müəyyənləşdirilib planlaşdırılması, aparılmasının təşkili və icrası, yüksək ixtisaslı elmi kadrların hazırlanmasına, müxtəlif tədbirlərin hazırlanıb keçirilməsinə böyük faydalı əmək sərf etmişdir. Xüsusilə, Dövlət müstəqilliyimizin ilk ağır illərində İnstitutun kadr potensialının və maddi-texniki bazasının qorunub saxlanılmasında onun əvəzsiz xidmətləri vardır. Respublika Elmi əlaqələndirmə şurasının sədr müavini, İnstitut müdafiə şurasının həmsədri olmuş, hazırda Fizika İnstitutu Elmi şurasının, İnstitut nəzdində fəaliyyət göstərən Dissertasiya şurasının, "AMEA-nın Xəbərləri" FRTE seriyası və Fizika jurnallarının redaksiya heyətinin üzvü, İnstitut Qadınlar təşkilatının sədridir. O, uzun müddət Bakı Dövlət Universitetində ixtisas kurslarından mühazirə dərsləri aparmış, tələblərdə fizika elminin əsaslarına və tədqiqat işlərinə böyük maraq yaratmışdır.

Səlimə Mehdiyeva İnstitut kollektivi, Respublikamızın elmi və pedaqoji ictimaiyyəti arasında layiqli hörmətə malikdir. O, böyük təcrübəyə malik tanınmış alim, yaxşı təşkilatçı, mehriban insan, yaxşı həmkar, qayğıkeş valideyndir. Yarımkeçiricilər fizikası və texnikasının inkişafına mühüm töhfələr vermiş, görkəmli alim və elm təşkilatçısı, xeyirxah insan Səlimə Mehdiyevanı şərəfli yubileyi münasibəti ilə təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı, yeni böyük uğurlar arzulayırıq!

**Arif HƏŞİMOV**
**AMEA-nın akademik-katibi,**

**55 illik elmi fəaliyyətini Azərbaycanın qədim dövr tarixinin mixi (civi) yazılı abidələr və maddi mədəniyyət nümunələri əsasında tədqiqinə həsr edən Solmaz xanım Mirtağı qızı Qaşqaydünya miqyasında tanınan elm xadimlərimizdən olmuşdur. Ziyalı ailəsində anadan olan S. Qaşqay 1960-cı ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirmiş, əmək fəaliyyətini ömrünün sonuna qədər AMEA Tarix İnstitutuna bağlamışdır.**



# Elmdə yaşanan ömür

*(Solmaz Qaşqayın 90 illiyinə həsr olunur)*

Qədim Şərq tarixinə marağını nəzərə alaraq SSRİ EA Şərqşünaslıq İnstitutunun Leninqrad (indiki Sankt-Peterburq) filialına ezam olunmuş, orada professor L. A. Lipindən akkad (Aşşur-Babil), professor İ. M. Dyakonovdan isə biayni (Urartu) dillərində tərtib olunmuş mətnlərin sirrlərinin mənimsənilməsi istiqamətində ümumilikdə 5 illik tədris kursu keçmişdir. Bu ölü dillərin mənimsənilməsi prosesində qazandığı biliklər sonralar onun elmi yaradıcılığının maddi bazasına çevrildi. S.Qaşqay mərhum alimlərimiz akademik İqrar Əliyev və professor Yusif Yusifovdan sonra respublikamızda Ön Asiyanın ölü dillərinin tədqiqi ilə bağlı araşdırmalar aparmağa qadir olan üçüncü tarixçimiz, ekspert səviyyəsində mühakimə yürütmək irtidarına malik mütəxəssisimiz idi. Təsadüfi deyil ki, məhz Aşşur və Urartu hökmdarlarının kitabələrindəki məlumatların elmi təhlili əsasında o, 1971-ci ildə İ. Əliyevin rəhbərliyi altında "İran Azərbaycanı e.ə. I minilliyin əvvəllərində" mövzusunda namizədlik (indi tarix üzrə fəlsəfə doktoru) dissertasiyasını uğurla müdafiə etmişdir. Bu əsər dünya tarixşünaslığına dövlətçilik tariximizdə xüsusi yeri olan Manna çarlığına həsr olunmuş ilk və hələ ki, yeganə dissertasiya işi kimi daxil olub. Dissertasiya işinin elmi nəticələrini əks etdirən "Manna çarlığının tarixindən" monoqrafiyası 1977-ci ildə rus, "Manna dövləti" adı ilə 1993-cü ildə Azərbaycan dillərində nəşr olunaraq elmi ictimaiyyətin müzakirəsinə verildi və oxucular tərəfindən yüksək dəyərləndirildi.

S.Qaşqay elmi fəaliyyətində yazılı tarixlə arxeologiya elminin vəhdətini qura bilmişdir. O, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları ilə birgə müntəzəm olaraq respublikamızın müxtəlif bölgələrində, daha çox Naxçıvanın tunc və dəmir dövrlərini əhatə edən yaşayış məskənlərinin arxeoloji tədqiqatlarında iştirak etmiş, aşkarlanan maddi mədəniyyət nümunələrinin elmi ictimaiyyətə tanıdılmasında, eləcə də, təbliğində töhfəsini vermişdir.

Solmaz xanım 1980-ci ildən Xaraba-Gilan arxeoloji ekspedisiyasının tərkibində Naxçıvan abidələrinin tədqiqinə cəlb olunmuşdur. Qədim tarixi öyrənən alim bu diyarda zəngin mədəni irsimizin olduğunu gözəl bilirdi. Doğrudan da 10 il ərzində Xaraba-Gilan arxeoloji ekspedisiyasının tədqiq etdiyi I Plovdağ (tunc dövrü), Xalı-Keşan (XII-X əsrlər), Mərdan gölü (X-VI-II əsrlər) və Muncuqlutəpə (VIII-VI əsrlər) nekropollarında qədim tariximizi zənginləşdirən külli miqdarda artefaktlar əldə olundu. Arxeoloji materiallar sırasında Cənubi Qafqazda ilk dəfə qəbir kameraları ilə yanaşı, onlardan daha çox material verən (o cümlədən keramika məmulatı) və arxeoloji ədəbiyyata Q.M.Aslanova məxsus "qurbangah" adı ilə daxil olmuş ehsan kameralarını və silindrik möhürləri xüsusilə qeyd etmək lazımdır. Bir neçə qəbrin ehsan kamerasında erkən dəmir dövrünün süfrə qablarının bütün dəsti aşkar olunmuşdu. Solmaz xanım bu tədqiqatlara Rusiyanın görkəmli şərqşünas arxeoloqlarından I.N.Medvedskayanı, görkəmli rəssam N.Kuznesovanı da cəlb etmişdi. Ümumiyyətlə, Xaraba-Gilan arxeoloji ekspedisiyasının apardığı qazıntılarda Moskva və Sankt-Peterburq şəhərlərinin elmi-tədqiqat müəssisələrindən hər il 5-6 nəfər arxeoloq, rəssam və cizgiçi iştirak edirdi. Arxeoloji tədqiqatların nəticələri haqqında Solmaz xanım Budapeştdə, Vyanada, Parisdə, Berlində, Moskvada, Tbilisidə, Sankt-Peterburqda, Tehranda və Bakıda keçirilmiş Beynəlxalq konfranslarda arxeoloq-alimlərin diqqətini cəlb edən maraqlı məruzələrilə milli tarix elmimizi yüksək səviyyədə təmsil edirdi.Arxeoloji ekspedisiyalar zamanı Solmaz xanım kənd camaatı ilə, xüsusilə qadınlarla sıx ünsiyyətdə olur, tariximizdən, öz həyat təcrübəsindən maraqlı söhbətlər edirdi. Seyid qızı olduğuna görə isə hamının ona xüsusi rəğbəti vardı. Bir maraqlı faktı qeyd etmək yerinə düşərdi. Keçən əsrin 80-ci illərində konservativliyilə seçilən Ordubad kəndlərində qadınlar şalvar geyməzdilər, geyənlərə də camaat o qədər də xoş baxmazdı. Ona görə də, Solmaz xanım Moskva və Sankt-Peterburqdan gələn gənc arxeoloq xanımlara burada olduqları müddətdə geyimlərinə fikir verməyi və özlərini yerli ənənəyə uyğun aparmağı məsləhət görürdü. Bir neçə ay davam edən qazıntılarda qonaqlar artıq yerli camaatla qaynayıb qarışmışlar.S.Qaşqay respublikamızın tarixçilərinin Rusiya Federasiyasının elmi mühitilə, xüsusən, onun tədqiqatçı kimi formalaşmasında rolu olan Sankt-Peterburq Şərqşünaslıq məktəbilə əlaqələrini qoruyub saxlamağa çalışan nadir alimlərdən olmuşdu. Bizim və Rusiya şərqşünas-tarixçilərinin elmi nailiyyətlərinin və əsərlərinin mübadiləsində onun vasitəçiliyi əvəzsiz idi.Solmaz xanım Qaşqayın elmi yaradıcılığında tarix üzrə fəlsəfə alimlik dərəcəsini almaq üçün yazdığı dissertasiya işindən əlavə onun 2006-cı ildə institutun Elmi Şurasının qərarları ilə nəşr olunmuş "Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə" və 2009-cu ildə "Ön Asiyada miqrasiya prosesləriə dair"(Elmi redaktor t.ü.f.d.,dosent E.Ə.Məhərrəmov) monoqrafiyalarının müstəsna yeri vardır.Bu iki əsər Azərbaycanın qədim tarixinə dair yazılan ən dəqiq və obyektiv əsərlər kimi milli tarixşünaslıqda xüsusu yer tutur. "Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə" monoqrafiyası hazırda Qərbi Azərbaycan tarixinin qədim dövrününün tədqiqi çox mühüm mənbə kimi istifadə edilir. Məlumdur ki, Qərbi Azərbaycan ərazisi qədim Azərbaycan dövləti Manna dövlətinin böyük bir hissəsi olmuşdur. E.ə. XXIII-VIII əsrlərdə Urartu və Aşşur dövlətlərinin Manna ərazilərinə hərbi yürüşləri, ilk növbədə Qərbi Azərbaycan ərazisində, xüsusilədə Göyçə gölü ətrafında baş vermiş hadisələr bu ərazilərdə aşkar edilmiş Aşşur və Urartu mixi yazılarında qeyd edilmiş XX əsrin 70-80-ci illərində mərhum Solmaz xanım tərəfindən toplanılaraq Azərbaycan dilinə tərcümə edilmiş 2006-cı ildə nəşr edilmiş "Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə" əsərinə daxil edilmişdir. Solmaz xanım Qaşqayın 2009- cu ildə nəşr etdirdiyi "Ön Asiyada miqrasiya proseslərinə dair"monoqrafiyası da Azərbaycanının qədim tarixi problemlərinin tədqiqi üçün,xüsusilə də qədim dövrlərdə Cənubi Qafqaz daxil olmaqla Ön Asiya ərazisində baş vermiş miqrasiya prosesləri,bu proseslərin yerli əhalinin mədəniyyətinə, dilinə, məişətinə göstərdiyi təsir və diqər məsələr tədqiq edilmişdir. Solmaz xanım bu əsərində qədim mənbələrə istinad edərək şumerl, akkad, kuti, hurri və lullubi, amori, kassi, hat və hett-nes. midiyalı, pars, skifl tayfaları və qədim Ebla, Mitani, Babil, Aşşur, Urartu, Manna, Midiya, Fələstin, İsrail, İordaniya, Finikiya, Atropatena və Albaniya dövlətləri haqqında müfəssəl məlumatlar vermişdir. Bütün bunlar Solmaz xanım Qaşqayın Azərbaycanın və Ön Asiya regionunun qədim tarixinə dair zəngin bir elmi irs qoyduğunu deməyə əsas verir.

Səhhətinin imkan verdiyi qədər Solmaz xanım elmi yaradıcılığını pedaqoji fəaliyyətlə paralel davam etdirirdi. O bir müddət Qərb və Xəzər Universitetlərində Azərbaycan tarixi və xüsusi ixtisas fənlərindən oxuduğu mühazirələr, keçirdiyi seminarlarla tələbələrin tarixi biliklərinin zənginləşməsinə, dünyagörüşünün artmasına böyük təsir göstərmişdir. Solmaz xanım Tarix İnstitutunda tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün müdafiəyə təqdim olunan dissertasiyaların müzakirə və müdafiələrində opponent və elmi rəhbər kimi iştirak edir və öz fikirlərini bildirərdi. İnstitutun "Qədim Azərbaycan tarixi" şöbəsinin aspirant və dissertantlarına mənimsədiyi qədim dillərdən məlumat verir, onlara bu dilləri öyrədir, gənc tədqiqatçılara qayğı ilə yanaşır, yeri gələndə onlara himayədarlıq edirdi. Tarix İnstitutunda yaşından, vəzifəsindən və elmi dərəcəsindən asılı olmayaraq az adam tapılar ki, onun xoş münasibətindən və xeyirxahlığından kənarda qalsın. Çox səmimi, təmiz qəlbli, xeyirxah, həm də prinsipial mövqeyə malik bir insan idi. Əməksevərliyi, qayğıkeşliyi və səmimiliyilə Solmaz xanım Tarix İnstitutunun kollektivinin hörmətini qazanmışdı.Bütün elmi fəaliyyəti boyu Solmaz xanımı yazdığı əsərlərin kəmiyyət deyil, keyfiyyət tərəfi maraqlandırıb. Elmdə prinsipial mövqeyi tarix elmimizin saxtakarlıqlardan qorunmasına, əsassız fərziyyələrdən təmizlənməsinə yönəlmişdi. Araşdırdığı problemə məsuliyyətlə yanaşır, ilk mənbələrin məlumatlarını dönə-dönə təftiş edir, həlledici mülahizə yürütməzdən əvvəl məsləhət üçün tanınmış mütəxəssislərə müraciət edirdi. S.Qaşqay Tarix İnstitutunun "Azərbaycan tarixi"nin yeddi cildlik akademik nəşrinin I cildinin müəlliflərindən idi.

Yunan filosofu Demokritin müdrik kəlamında deyilir: "hər şey axır, hər şey dəyişir". Lakin dəyişməyən insanın yaddaşlarda qoyduğu izdir. Solmaz xanımı Ordubadın Sabir, Qoşadizə və Kələntər-dizə kəndlərinin camaatı indi də xoş sözlərlə xatırlayır. Ömrünün məhsuldar elmi çağını yaşadığı Tarix İnstitutunun kollektivi bu gün də onu xoş xatirələrlə yad edir. Vaxtı ilə çalışdığı elm ocağında, eləcə də, bütövlükdə milli tarix elmimizdə bu gün də onun yeri görünür.

**Cəbi BƏHRAMOV,**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Bəhlul İBRAHİMOV,**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Allahverdi ƏLİMİRZƏYEV**
*tarix elmləri doktoru, dosent*

# 2800 il yaşı olan qayaüstü mixi yazılı mətnin yeri müəyyən edilib

**Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, AMEA Arxeologiya və Antropologiya İnstitutunun Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Xaraba-Gilan arxeoloji ekspedisiyasının rəisi, institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli və tədqiqatçı Hüseyn Cəfərov İlandağ ərazisində e.ə. VIII əsrlərə aid qaya üzərində Urartu mixi yazılı mətnin yerini aşkar ediblər.**







Xatırladaq ki, XX əsrin 80-ci illərinin sonunda Naxçıvan MR-dəki İlandağ ərazisində qaya üzərində göstərilən mixi yazılı mətn aşkar olunaraq elmi dövriyyəyə daxil edilmişdi. Lakin abidənin yeri dəqiq göstərilməmişdi. Bu illər ərzində dəfələrlə axtarış cəhdlərinə baxmayaraq, abidənin yerini aşkar etmək mümkün olmamışdı.

Qeyd edək ki, İlandağ ərazisindəki qaya üzərində mixi yazılı mətndə Urartu çarı I Sardurinin oğlu İşpuini (e.ə.820-810 cu illər) və onun oğlu Menua (e.ə.786-764 illər) mədh olunub. Mövcud tərcümə versiyasına görə, mətndə bu sözlər əks olunub: "Haldi tanrısının himayəsi altında Sardurinin oğlu İşpuini (və) İşpuininin oğlu Minua Arşini şəhərini fəth etdilər. Onlar (və ya o) Arşini şəhərinin torpağını fəth etdilər, onlar (və ya o) Aniani şəhərinin torpağını fəth etdilər və (və ya o) onu dağıtdılar.... o, Haldi tanrısı üçün bir stela ucaltdı. Puluadi torpağında bir ritual tətbiq etdi: O (ritualda iştirak edən) Puluadi torpağından Haldi tanrısına [bir öküz] və Haldi tanrısının arvadına bir inək qurban verdi?".

Bu, Azərbaycanda Urartu mədəniyyətinə aid tapılmış ilk yazı nümunəsidir. Qayaüstü yazının araşdırılıb öyrənilməsi Azərbaycanın qədim tarixinin mühüm səhifələrinin aydınlaşdırılmasına imkan yaradacaqdır.

## Naftalanda sağlamlıq turizminin inkişaf perspektivləri müzakirə olunub

*AMEA Rəyasət Heyətinin elmi katibi Coşqun Məmmədov Naftalanda sağlamlıq turizminin inkişafına dair mühüm təkliflərlə çıxış edib*



**2-3 iyun tarixlərində Dövlət Turizm Agentliyinin təşəbbüsü ilə Naftalan şəhərində Sağlamlıq Turizmi üzrə İşçi Qrupun növbəti iclası keçirilib. Tədbirdə işçi qrupun üzvü, AMEA Rəyasət Heyətinin elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru Coşqun Məmmədov iştirak edib.**

Nafta Hotelin konfrans zalında keçirilən geniş tərkibli iclasda çıxış edən Coşqun Məmmədov sağlamlıq turizmi sahəsində sahibkarlığın inkişafının təşviqi məqsədilə beynəlxalq təcrübədə geniş tətbiq olunan vergi tətili və vergi krediti mexanizmlərindən istifadənin məqsədəuyğun olduğunu bildirib. O qeyd edib ki, bu cür alətlər investorlara fəaliyyətlərinin ilkin və daha riskli mərhələsində vergi yükünün azaldılması hesabına əlavə dəstək göstərərək investisiya qoyuluşlarını və biznesin dayanıqlı inkişafını stimullaşdıra bilər.

Coşqun Məmmədovun digər mühüm təklifi Naftalan neftindən istifadənin ekoloji nəticələrinin idarə olunması və uzunmüddətli dayanıqlığın təmin edilməsi məqsədilə "Naftalan Eko Fondu"nun yaradılması olub. Təklifə əsasən, fond dövlətin təşəbbüsü və əsas maliyyə dəstəyi ilə, eyni zamanda bu sahədə fəaliyyət göstərən müəssisələrin könüllü töhfələri hesabına formalaşdırıla bilər. Fondun fəaliyyət istiqamətlərinə istifadə olunmuş Naftalan neftinin təhlükəsiz utilizasiyası, təkrar emalı imkanlarının araşdırılması, ekoloji risklərin azaldılması, eləcə də bu sahədə elmi-tədqiqat işlərinin dəstəklənməsi daxildir.

Bununla yanaşı, çıxışda vurğulanıb ki, Naftalan nefti tükənən təbii sərvət olduğundan gələcəkdə şəhərin turizm sektorunun yalnız bu resursdan asılı vəziyyətdə qalması müəyyən risklər yarada bilər. Bu baxımdan, Naftalanın turizm potensialının şaxələndirilməsi və alternativ turizm istiqamətlərinin inkişafının dəstəklənməsi xüsusi əhəmiyyət daşıyır. Təklif olunan fondun fəaliyyət istiqamətlərindən biri kimi, turizm sektoruna yeni daxil olan sahibkarlar, eləcə də Naftalanın digər turizm imkanlarına investisiya yatırmaq istəyən təşəbbüskarların maliyyə baxımından dəstəklənməsi də nəzərdə tutulub.

Həmçinin, fondun fəaliyyətinin Naftalanın uzunmüddətli sosial-iqtisadi və turizm inkişafına xidmət edən istiqamətləri də əhatə etməsi təklif olunub. Bu çərçivədə turizm potensialının şaxələndirilməsi, yeni investisiya təşəbbüslərinin təşviqi, kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi, peşəkar kadr hazırlığının gücləndirilməsi, beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və Naftalanın turizm brendinin daha effektiv tanıdılması istiqamətində layihələrin maliyyələşdirilməsi nəzərdə tutula bilər. Bu yanaşma şəhərin rəqabət qabiliyyətinin artırılmasına və gələcək inkişafının daha dayanıqlı əsaslar üzərində qurulmasına xidmət edə bilər.

Tədbir çərçivəsində iştirakçılar Chinar Hotel & Spa Naftalan və Nafta Hoteldə infoturda iştirak edərək müəssisələrin fəaliyyəti, müalicə və reabilitasiya xidmətləri, wellness və SPA infrastrukturu, eləcə də yerləşdirmə və xidmət imkanları ilə yaxından tanış oldular.

Tədbirdə həmçinin Naftalan şəhərində sağlamlıq turizminin mövcud vəziyyəti, sanatoriya-kurort müəssisələrinin fəaliyyəti və qarşılaşdıqları problemlər, sahənin gələcək inkişaf istiqamətləri və aidiyyəti qurumlar arasında koordinasiya məsələləri müzakirə edilib. Eyni zamanda, sağlamlıq turizmi sahəsində fəaliyyət göstərən tibb personalı üçün təlim proqramlarının təşkili ilə bağlı fikir mübadiləsi aparılıb.

